# BMT Baş Assambleyasının 76-cı sessiyası bağlanıb



**BMT-nin Baş katibi Antonio Quterreş Baş Assambleyanın 76-cı sessiyasını bağlı elan edib.**

APA-nın xəbərinə görə, Baş katib sessiyanın sədri Abdulla Şahidə qurumun prinsiplərinə sadiqlik nümayiş etdirdiyinə görə təşəkkür edib.

Quterreş bildirib ki, macar diplomat Çaboy Kereşinin sədrlik edəcəyi 77-ci sessiyanın açılışını səbrsizliklə gözləyir.

BMT Baş Assambleyasının 77-ci sessiyası sentyabrın 13-də başlayacaq. 20-26 sentyabr tarixlərində sessiyada dövlət və hökumət başçıları iştirak edəcəklər.



## 3 gündür icazə verilmir

570 nəfər azərbaycanlı zəvvar İran-İraq sərhədində qalıb

**Azərbaycanlı zəvvarlar İran-İraq sərhədində qalıb. Bu barədə "Şərq"ə hazırda sərhəddə olan zəvvarlardan Tahir Cəfərov məlumat verib.** T.Cəfərov bildirib ki, Azərbaycandan İraqın Kərbəla şəhərinə ziyarətə gedən zəvvarlardan 570 nəfər 3 gündür ki, İran-İraq sərhədində saxlanılıb və İraq ərazisinə buraxılmır.

(səh.3)

№ 163 (5685), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 13 sentyabr 2022-ci il (çərşənbə axşamı)



# Toy dəvətnamələrinin sayı xeyli azalacaq

Bəzi şadlıq sarayları rəqabətə dözməyib bağlanacaq

**Avqust ayında şadlıq saraylarında sifarişlərin sayı 74.0 faiz azalıb. İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) verilən məlumatda sifarişlərin azalması Məhərrəm ayının başlaması ilə əlaqələndirilib:** "Yeni mövsüm üçün təklif edilən menyulara əsasən, şadlıq saraylarının qiymətlərində 9 faiz artım qeydə alınıb. Xüsusən 40 manatadək olan menyularda qiymət daha çox artıb: 11 faiz. Sentyabrın sonuna doğru daha yüksək qiymət artımları gözlənilir".

İqtisadçı-ekspert Rauf Qarayev isə "Şərq"ə açıqlamasında deyib ki, sifarişlərin azalmasını sadəcə Məhərrəmlik ayı ilə əlaqələndirmək düzgün deyil: "Əvvəlki illərlə müqayisədə Azərbaycanda şadlıq saraylarında toy etmək istəyən insanların da sayı azalıb.

(səh.5)



## Azərbaycan Prezidenti Kral III Çarlzı təbrik edib

**Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiyanın Kralı III Çarlza məktub göndərib.**

*Məktubda deyilir:*

"Əlahəzrət,

Böyük Britaniya və Şimali İrlandiyanın Kralı kimi taxta çıxmağınız münasibətilə Sizi öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı ikitərəfli münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ölkələrimizi birləşdirən ənənəvi dostluq əlaqələri, müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, Birləşmiş Krallığın dost xalqının rifahı naminə qarşıdakı ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram".

## Hərbi xidmətkeçmə haqqında Əsasnamədə dəyişiklik ediləcək



**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin payız sessiyası çərçivəsində ilk iclası keçiriləcək.**

16 sentyabrda keçiriləcək iclasın gündəliyinə 7 məsələ daxil edilib.

Bunlar aşağıdakılardır:

1.Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin Milli Məclisin 2022-ilin yaz sessiyası dövründə gördüyü işlər barədə hesabatı.

(səh.2)

# Putinin ətrafı üzücü müharibədən yorulub

## Ərdoğan Rusiya prezidentini növbəti dəfə danışıqlar masasına dəvət edəcək



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Səmərqənddə Şanxay Əməkdaşlığı Təşkilatının Zirvə toplantısında rusiyalı həmkarı Vladimir Putinlə görüşdə ona növbəti dəfə Ukrayna rəhbəri V.Zelenski ilə danışıqlar aparmağı təklif edəcək.**

"Hürriyət"in yaydığı xəbərə görə, Ərdoğanla Putinin görüşündə ən mühüm mövzu Ukraynada baş verənlər olacaq. Türkiyə lideri Rusiya prezidentinə bəyan edəcək ki, ölkəsi münaqişəyə son qoymaq və vasitəçilik təşəbbüsləri ilə davamlı atəşkəsə nail olmaq üçün bütün səylərini davam etdirəcək. Ərdoğan məsələnin diplomatik yolla həllini vurğulayacaq.

(səh.3)

# Valideynlər nəfəs ala bilər, məcburiyyət olmayacaq

Şagirdlər ötən ilki formaları ilə məktəbə gedə bilərlər



**Yeni tədris ilinin başlanmasına 48 saatdan da az vaxt qalır.**

Nə dərsi düşünən var, nə keçiləcək mövzuları, nə təhsilin keyfiyyətini. Hamının başı məktəbli formasına qarışıb. Valideynlər Bakı Tikiş Evinin qarşısına toplaşır, izdiham yaranır, mağazalara axın var, amma forma yoxdu. Məktəb direktorları isə "forma "bu" rəngdə olmalıdır", deyib, iki ayağını bir başmağa dirəyir, valideynlərin mobil telefonlarına mesajlar göndərirlər.

(səh.5)



## İstanbulda atışmada yaralanan azərbaycanlıların adları açıqlanıb

**İstanbulun Sarıyer rayonunda yerləşən Vadi İstanbul ticarət mərkəzində dünən, 11.09.2022 tarixində axşam saat 8 radələrində naməlum qruplar arasında yaranmış silahlı münaqişədə dördü azərbaycanlı olmaqla 6 nəfər yaralanıb.**

Bu barədə APA-ya Azərbaycanın İstanbuldakı Baş konsulluğundan xəbər verilib.

Bildirilib ki, hadisə nəticəsində Rakif Əliyev, Mahrec Kərimov, Azər Amanov və Qulam İbrahimov xəsarət alıb: "Yaralılar Seyrantepe Hamidiye Etfal Eğitim və Araştırma Xəstəxanasında müalicə olunurlar. Hadisənin yaranma səbəbləri aidiyyəti polis şöbəsi tərəfindən araşdırılır. Nəticəsi barədə əlavə məlumat veriləcək".

## AzTV-nin aparıcısına AZAL-da vəzifə verildi



**Azərbaycan Televiziyasının aparıcısı Nərmin Xəlilova Paşa Kəsəmənskinin rəhbərlik etdiyi "Azərbaycan Hava Yolları" QSC-nin İctimaiyyətlə əlaqələr xidmətinin mətbuat katibi vəzifəsinə təyin edilib.**

Nərmin Xəlilova Azərbaycanın KİV-ində böyük təcrübəyə malikdir, uzun müddət televiziyada çalışıb.

Bildirək ki, İctimaiyyətlə əlaqələr xidmətinə Paşa Kəsəmənski rəhbərlik edir.

## 3 nəfər ölüb

Daha 76 nəfər koronavirusa yoluxub

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 76 yeni yoluxma faktı qeydə alınıb, 80 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 817 938 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 805 709 nəfər müalicə olunaraq sağalıb, hazırda 2 372 aktiv xəstə var. Bu günə qədər 9 857 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1 916, bu günə qədər isə ümumilikdə 7 195 841 test icra olunub.*



## Böyük gəlir gətirəcək

Kruiz səyahəti üçün Azərbaycanın çox geniş imkanları var

(səh.4)

## "Varislərlə müsahibələr"ə xüsusi diqqət məni hədsiz sevindirdi"

Hafiz Əhmədov: "Mən bu müsahibələri Tovuzda ucqar dağ kəndində yaşayaraq hazırlamışam"



(səh.6)

# Yunanıstan Türkiyənin qarşısında dayana bilməz

## Afinanın Ankaraya qarşı təxribat cəhdlərinin arxasında Qərb dayanır



**Türkiyə ilə Yunanıstan arasında illərdir davam edən gərginlik səngimək bilmir. Son günlər iki ölkənin döyüş təyyarələri arasında Egey və Şərqi Aralıq dənizində yaşanan hadisələr diplomatik böhranı pik həddə çatdırıb. Türkiyə Yunanıstanı Krit adasında yerləşdirilmiş F-16 döyüş təyyarələrini təqib etməkdə ittiham edir. Yunanıstan isə Ankaranı hava məkanını pozmaqda günahlandırır.**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Yunanıstana hər an zərbə endirilə biləcəyinin mümkünlüyü barədə xəbərdarlıq edib. Ərdoğan bildirib ki, Türkiyə ”Yunanıstan təxribatları” mövzusunu NATO səviyyəsində də qaldırıb: ”Düşünürəm ki, Afina Türkiyə ilə münasibətlərdə gələcək addımları təhlil edəcək. Əks halda, dediyim kimi, hər an zərbə endirilə bilər”. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu da Yunanıstana xəbərdarlıq edib. Nazir deyib ki, Afina kimsənin maşası olmamalıdır: ”Türkiyənin dostluğu qədim olduğu kimi, mübarizəsi də əhəmiyyətlidir”. Məlumat üçün bildirək ki, NATO müttəfiqləri - Yunanıstan və Türkiyə ərazi mübahisələrinə görə dəfələrlə silahlı münaqişə həddinə çatıblar. Gərginliyin yeni mərhələsi Yunanıstanın Rusiya istehsalı olan S-300 hava hücumundan müdafiə sistemlərini yerləşdirməsi ilə başlayıb. Yunanıstan Türkiyəni S-300 hava hücumundan müdafiə sistemləri ilə təhdid etməkdədir.

İki ölkəni üz-üzə qoyan səbəblərdən biri ”12 ada”dır. Egey dənizinin cənub-şərqində ”12 ada” olaraq bilinən, əslində sayı 12-dən çox olan bu adalar 20-ci əsrin əvvəllərinə qədər Osmanlı imperiyasına məxsus olub. Türkiyə-İtaliya müharibəsində imzalanan müqaviləyə əsasən italyanlar işğal etdikləri 12 adanı geri qaytarmalıydı. Lakin 12 adanın statusu İkinci Dünya müharibəsinin sonunda qalib tərəf olaraq Yunanıstana verildi. Yarım əsrdən çoxdur ki, Egey adalarında Türkiyə ilə Yunanıstan arasında ada qalmaqalı davam edir. Gərginliyin digər səbəbi Yunanıstanın Şərqi Egey adalarında hərbi texnika yerləşdirməsidir ki, bu da Türkiyənin sərt reaksiyasına gətirib çıxarıb.

**İki ölkə arasındakı qarşıdurmanı ”Şərq”ə təhlil edən Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri Samir Hümbətov deyib ki, Yunanıstan və Türkiyə hərbi sahədə müqayisə olunmayacaq dərəcədə fərqli ölkələrdir. Analitik bildirib ki, Türkiyənin müdafiə sənayesi nazirliyi sürətlə inkişaf etməkdədir:** ”Yunanıstan 10 ildən artıqdır ki, iqtisadi-siyasi böhranlardan əziyyət çəkir. Digər yandan ölkədə son 5 ay ərzində ABŞ hərbi bazasının qurulması onu göstərir ki, Yunanıstanın özünün hərbi potensialı yüksək deyil. Afinanın Türkiyəyə qarşı təxribat cəhdlərinin, təhdidlərinin arxasında Qərb dayanır. Qərbin Türkiyəyə qarşı birbaşa, yəni arada vasitəçi olmadan təxribata əl atması mümkün olmadığına görə, bunu Yunanıstan kimi əlaltı dövlətlər vasitəsi ilə həyata keçirirlər. Ancaq nəzərə almaq lazımdır ki, Yunanıstan nə hərbi dəniz qüvvələri, nə quru qoşunları, nə də hava hücumundan müdafiəyə görə Türkiyə ilə müqayisə oluna bilər”.

**Ekspert vurğulayıb ki, ”12 adalar” məsələsi tərəflər arasında ziddiyyətli məqamlardandır:** ”Həmin adalar Türkiyəyə təxminən 2, 2.5 kilometr məsafədədir. Dövlətlərarası dəniz sərhədləri millə təyin edilir. Yunanıstan 6 mil olan dəniz məsafəsini 10-12 milə qaldırmaq istəyir. Türkiyə isə haqlı olaraq buna qarşı çıxır. Afina hökuməti zaman-zaman ”12 adalar” məsələsini gündəmə gətirərək tərəflər arasında gərginliyi saxlamağa çalışır. Lakin bir daha deyirəm, bu gərginlik sadəcə Yunanıstanın maraqlarına xidmət etmir. Afinaya açıq və gizli dəstək verən Qərb ölkələrinin də burada maraqları var. Türkiyənin Aralıq dənizində böyük qaz yataqları tapması da Qərbdə ciddi narahatlıq doğurur. Konkret olaraq Türkiyənin bu istiqamətdə irəliləməsini istəmir və buna mane olmaq üçün əllərindən gələni edirlər. Şimali Kiprin Türkiyə tərəfindən qorunması və himayə edilməsi də həmin dairələrin narahatlığına səbəb olan məsələdir”.

**İsmayıl Qocayev**



# Hərbi xidmətkeçmə haqqında Əsasnamədə dəyişiklik ediləcək

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin payız sessiyası çərçivəsində ilk iclası keçirləcək. 16 sentyabrda keçiriləcək iclasın gündəliyinə 7 məsələ daxil edilib.**

**Bunlar aşağıdakılardır:**

1.Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin Milli Məclisin 2022-ilin yaz sessiyası dövründə gördüyü işlər barədə hesabatı.

2. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin Milli Məclisin 2022-cilin payız sessiyası üçün nəzərdə tutulan iş planı haqqında.

3. ”Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

4. ”Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş ”Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

5. ”Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. ”Azərbaycan Respublikasının 1995-ci il 10 yanvar tarixli 947 nömrəli Qanunu ilə təsdiq edilmiş ”Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. ”Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi.

# Bakı, Naxçıvan və Quba

## Yerli turistlərin ən çox ziyarət etdiyi şəhərlər açıqlanıb

**2021-ci ildə daxili səfərlərin ən çox təşkil edildiyi şəhərlərin adları açıqlanıb.**

**Bu barədə APA-ya Dövlət Turizm Agentliyindən xəbər verilib.**

Bildirilib ki, ən çox ziyarət edilmiş ilk 3 destinasiya Bakı, Naxçıvan Muxtar Respublikası və Quba olub.

Bu destinasiyalardan sonra Qusar, Qəbələ, Xaçmaz, Gəncə, Şəki, Sumqayıt və Abşeron isə növbəti ən çox ziyarət edilmiş şəhərlər siyahısındadır. Bakı bütün daxili səyahətlərin 31%-ni, Naxçıvan, Quba, Qusar və Xaçmaz isə 18%-ni təşkil edir. Gəncə, Şəki, Sumqayıt və Abşeron ölkədaxili edilən səfərlərin 15%-dən azını təşkil edir.



Səfərlərin məqsədlərə görə bölgüsündə Bakı, Xaçmaz, Gəncə və Abşeron istisna olmaqla, digər destinasiyalara səfərlərin demək olar ki, yarıdan çoxu dost-qohum ziyarəti məqsədilə edilib. Yerli turistlər işgüzar məqsədlə əsasən Bakı (26%), Sumqayıt (14%), Abşeron (12%) və Gəncəni (10%) ziyarət ediblər.

2021-ci ildə Xaçmaz şəhəri 45% olmaqla əsas istirahət məkanı kimi qeydə alınıb, halbuki 2020-ci il üçün bu rəqəm 28% olub. Quba (40%), Qusar (39%) və Şamaxı (38%) isə digər əsas istirahət şəhərlərindən hesab olunur. Sağlamlıq məqsədilə Bakı (16%) və Sumqayıt (16%), alış-veriş məqsədilə isə əsas şəhərlər Gəncə (13%) və Şəmkirdir (8%). Dini və digər məqsədli ziyarətlər ölkədaxili səfərlər üçün elə də maraqlı deyil.

Yerli turistlər tərəfindən təşkil edilən səfərlərin əksəriyyəti orta hesabla 1-3 gün (34-44%) və 4-7 gün (24-33%) təşkil edib. Birgünlük səfərlərin əksəriyyəti Bakı və Abşerona həyata keçirilib (17%). 8-14 günlük səfərlərdə üstünlük verilən şəhərlər Şəmkir, Bərdə və Şəkidir (hər biri 14%). Səyahət müddətinin 15 gün və daha uzun müddətə təşkil etdiyi rayonlar arasında isə Bərdə və Xaçmaz qeyd edilməlidir.

# Bakıda MDB Silahlı Qüvvələri Qərargah Rəisləri Komitəsinin iclası keçiriləcək

**Bakıda MDB dövlətlərinin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclası keçiriləcək.**



Bu barədə “Şərq”ə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Sentyabrın 12-də Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkədə səfərdə olan Müstəqil Dövlətlər Birliyi (MDB) Müdafiə Nazirləri Şurasının katibi general-mayor Yuri Daşkin ilə görüşüb.

Görüşdə cari ilin oktyabr ayında Bakıda keçirilməsi planlaşdırılan MDB iştirakçı dövlətlərinin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclası ilə bağlı təşkilati məsələlər müzakirə olunub.

*Tərəflər iclasın keçiriləcəyi yerə baxış keçirməyi qərara alıb və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.*

# Ermənilər 10 noyabr razılaşmasını pozur

## Təxribatların trayektoriyası dəyişib, indi də Ermənistanla Azərbaycan cəbhə xətti aktivləşib



**Ermənistan silahlı qüvvələrinin təxribatları davam etməkdədir. Son günlər Azərbaycan-Ermənistan sərhədinin Kəlbəcər, Laçın istiqamətində atəşkəsi davamlı pozan erməni silahlıları bu dəfə Gədəbəyi hədəf alıblar.**

Gədəbəy rayonunun Novoivanovka yaşayış məntəqəsi istiqamətlərində yerləşən mövqelərimiz ermənilərin atıcı silahlarından atəşə məruz qalıb. Bundan başqa, Rusiya sülhməramlılarının yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlıları tərəfindən Kəlbəcər rayonunun Ağqaya yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimiz atəşə tutulub. Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib ki, Qarabağ cəbhəsinin iflası ilə Ermənistanla Azərbaycan cəbhə xətti aktivləşib. Analitikə görə, Gədəbəyin Novoivanovka kəndinin atəşə tutulması maraqlı müşahidə yaradır:** ”Ermənistan ilk dəfə aktiv olaraq 2020-ci ildə Tovuzda cəbhə xəttini genişləndirməyə cəhd etmiş, nəticədə 27 sentyabrda müharibə başlamışdı. İndi hücumların trayektoriyası dəyişib. Ermənistan Qarabağ xəttini özünün dövlət sərhədlərinə çəkməkdədir. Bunun nəticəsi bizə nəyi deməyə əsas verir? Ermənilər 10 noyabr razılaşmasını pozur. Görüşlərin nəticələrinə zərər vurur. Azərbaycan əvvəliki səbəblər daxil özünün daxili ərazi vahidində müharibə imkanlarını başa çatdırıb. Eyni səbəblər BMT 51-ci maddə ilə sərhədlərə daşıb. Bu atəşkəs pozmaları sərhəddə müharibəyə və Azərbaycanın öz təhlükəsizliyini təmin etməsi üçün müdaxiləyə əsas verir. Bu müdaxilə sülh müqaviləsini, kəndləri və dəhlizi həll edə bilər”.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov isə deyib ki, təxribatlar Ermənistanın Baş naziri Nikol Paşinyanın hiyləgər planının bir hissəsidir:** ”Ermənistan lideri Rusiyanın Vladivostok şəhərində keçirilən Şərq İqtisadi Forumundan qayıdandan sonra sülh danışıqlarını pozmaq üçün gərginliyi artıracaq addımlar atmağa başlayıb. Bu da Nikol Paşinyanın Azərbaycan Prezidenti İlham Əliyevlə Brüsseldə avqustun 31-dəki görüş zamanı Azərbaycanla sülh yolunda gündəliyə daxil olan məsələlərlə bağlı razılaşma xəttinə tamamilə ziddir. Ermənistan liderləri real sülhdən yayınmaq üçün hər zaman bu cür avantürist davranış sərgiləyib və qeyri-ciddi siyasətçi olduqlarını sübut ediblər. Bu cür sürüşkən liderləri reallıq hissinə qaytarmağın və sülhə məcbur etməyin tək yolu hərbi güc tətbiqindən keçir. Odur ki, Azərbaycan Ordusunun ”dəmir yumruğ”u hər zaman hazır vəziyyətdə olmalıdır”.

**İsmayıl Qocayev**



# İran Rəşt-Astara dəmiryolunun çəkilişini uzadır

## İlin axırına qədər konkret addımlar atılmasa, prosesin dondurulduğu aydın olacaq

**“Ermənistan Mehri vasitəsilə dəmiryolunun çəkilişini dondurub”.**

*Bunu Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov deyib. Ekspert bildirib ki, İran Rəşt-Astara dəmiryolunun çəkilişini 2008-ci ildə bitirməli olsa da, hələ də uzadır:* ”Bakıda keçirilən Azərbaycan-Rusiya-İran arasında Şimal-Cənub layihəsi üzrə dövlət nümayəndələrinin görüşü pozitiv notlarla və gələcəyə hesablanan bəyanatla bitdi. Lakin Tehran 20 ildən çoxdur ki, 164 km lik yolu tikib qurtara bilmir. Bakıda da növbəti işçi bəyanat verildi. İlin axırına qədər konkret addımlar atılmasa, prosesin dondurulduğu aydın olacaq. Çünki artıq tikintiyə başlanılmalıdır. Ermənistan Mehridən keçməli olan dəmiryolu xəttinə razılıq versə də, hazırda prosesi faktiki olaraq dondurub. Məncə, bu məsələdə heyifslənməyə dəyməz. Hələlik vaxt var və dəhlizlə bağlı danışıqlar davam edəcək. Onsuz da bir məsələ dəqiq bəllidir. Qərbi Zəngəzur Şərqi Zəngəzur iqtisadi zonasına birləşməlidir”.

**İsmayıl**

# Beynəlxalq təcrübə öyrənilib

## “Siyasi partiyalar haqqında” yeni qanunun hazırlanmasında təkliflər nəzərə alınacaq



**”Siyasi partiyalar haqqında” yeni qanun zamanın tələbidir”. Bu barədə millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, hazırkı ”Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanunu 30 il bundan əvvəl - 1992-ci il 3 iyun tarixində qəbul edilib:**

”Ölkədə formalaşan yeni siyasi konfiqurasiya, müasir çağırışlar, dünyada baş verən yeni tendensiyalar qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsini zəruri edir. Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin hazırlanması üçün müraciət ediblər. Qeyd etmək lazımdır ki, qanun layihəsinin hazırlanması prosesi demokratik və şəffaf şəkildə təşkil edilib. İlk dəfə olaraq qanun layihəsi Milli Məclisin plenar iclasına, həmçinin komitələrin iclasına çıxarılmazdan əvvəl Milli Məclisin saytında yerləşdirilib. Sentyabrın 28-nə qanun layihəsinin ilk ictimai dinləmənin keçirilməsi təyin edilib. Layihənin hazırlanmasında siyasi partiyaların iştirakı təmin edilib. Cari ilin iyulun 26-da Milli Məclis layihə ilə bağlı təkliflərin təqdim edilməsi üçün dövlət qeydiyyatına alınmış siyasi partiyalara müraciət edib. Ötən müddət ərzində 39 siyasi partiya öz təkliflərini rəsmi olaraq Milli Məclisə təqdim edib və yeni qanunun hazırlanmasında bu təkliflərdən istifadə edilib”.

**C.Məmmədov vurğulayıb ki, önəmli məqamlardan biri layihənin hazırlanması zamanı beynəlxalq təcrübənin öyrənilməsidir:** ”Milli Məclisdə layihə hazırlanarkən Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi üzrə 2010-cu və 2020-ci illərdə qəbul etdiyi tövsiyələr, həmçinin 20-dən artıq ölkənin təcrübəsi nəzərdən keçirilib. Bu, eyni zamanda, sözügedən qanunun hazırlanmasına göstərilən diqqətin və həssaslığın göstəricisidir. Sonda onu da qeyd etmək lazımdır ki, Milli Məclisin saytında yerləşdirilmiş layihə ilkin variantdır. Sentyabrın 28-i keçiriləcək ilkin ictimai dinləmə, həmçinin növbəti ictimai dinləmə zamanı siyasi partiyaların, digər vətəndaş cəmiyyəti subyektlərinin, ekspertlərin, dövlət orqan və qurumlarının təklifləri nəzərdən keçirilməklə qanun layihəsi daha da təkmilləşdiriləcək. Bu da öz növbəsində qanunun yüksək səviyyədə hazırlanmasına öz töhfəsini verəcək”.

**İsmayıl**



# Putinin ətrafı üzücü müharibədən yorulub

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Səmərqənddə Şanxay Əməkdaşlığı Təşkilatının Zirvə toplantısında rusiyalı həmkarı Vladimir Putinlə görüşdə ona növbəti dəfə Ukrayna rəhbəri V.Zelenski ilə danışıqlar aparmağı təklif edəcək.**

"Hürriyət"in yaydığı xəbərə görə, Ərdoğanla Putinin görüşündə ən mühüm mövzu Ukraynada baş verənlər olacaq. Türkiyə lideri Rusiya prezidentinə bəyan edəcək ki, ölkəsi münaqişəyə son qoymaq və vasitəçilik təşəbbüsləri ilə davamlı atəşkəsə nail olmaq üçün bütün səylərini davam etdirəcək. Ərdoğan məsələnin diplomatik yolla həllini vurğulayacaq. Bundan əlavə, Putin və Ərdoğan "taxıl dəhlizi"nin effektivliyini də müzakirə edəcək. Ərdoğan Rusiyadan malların Türkiyənin koordinasiya etdiyi gəmilərlə dəhliz boyu göndərilməsini xahiş edəcək. Səmərqənd səfirinin ardınca Ərdoğan BMT Baş Assambleyasının 77-ci sessiyasında iştirak etmək üçün sentyabrın 17-22-də ABŞ-da səfərdə olacaq. O, sessiyada Rusiya-Ukrayna müharibəsində taxıl tədarükü, Yunanıstanla Türkiyə arasında gərginlik, terrora qarşı mübarizəyə dair ismarış verəcək. Səfər çərçivəsində Türkiyə lideri ABŞ dövlət başçısı Cozef Bayden və başqa rəsmilərlə görüşəcək. Bu temaslarda da Rusiya-Ukrayna müharibəsinin müzakirə olunacağı istisna edilmir.

**Siyasi elmlər doktoru, professor**

> Ərdoğan Rusiya prezidentini növbəti dəfə danışıqlar masasına dəvət edəcək

**Cümşüd Nuriyev "Şərq"ə deyib ki, son günlər Ukrayna ordusunun hücuma keçməsi nəticəsində Xarkov istiqamətində ciddi uğurlar əldə olunub.** Professorun sözlərinə görə, Rusiya Ukraynanın Qara dənizə çıxışını bağlamaq üçün əsas qüvvələri cənuba yönləndirsə də, Ukrayna cənubla yanaşı, şimal və şərq istiqamətlərində də əks-hücuma keçərək ruslara ciddi zərbə vurdu: "Xarkovda yaşayış məntəqələrinin azad edilməsi diyi deyillir. Bu, Rusiyanın məğlubiyyətinin başlanğıcıdır. Rusiya hökuməti də bunu dərk edir. Moskvanın apardığı informasiya müharibəsi effektini vermir. Putin üçün hazırlanmış piar kampaniyası çox aşağı səviyyədədir. Rus efirlərində hər gün eyni adamlar çıxış edir və eyni arqumentləri səsləndirirlər. Yarım ildən çox çəkən proses insanları yormaqda və aparılan siyasət bumeranq effekti verməkdədir. Putin ümid edir ki, yaxın günlərdə Türkiyə vasitəsi ilə Zelenski ilə dil tapacaq. Amma Zelenskinin görüşə razılıq verəcəyinə inanmıram. Düzdür, Böyük Britaniyanın əfsanəvi kraliçasının ölümü ilə bir qədər fasilə yaranmış ola bilər. Ancaq bu o demək deyil ki, ingilis kəşfiyyatı Ukraynadakı fəaliyyətini sonlandırıb".

**C.Nuriyev vurğulayıb ki, əslində Kiyevin başqa çıxış yolu yoxdur, yəni itirəcəyi heç nə qalmayıb:** "Aylardır müharibə gedir, şəhərlər, kəndlər, infrastruktur tamamilə dağıdılıb, insanlar qaçqın düşüb, xarici ölkələrə axışıblar. Zelenski istəsə belə geriyə addım ata bilməz. Fərqli davranış, hansısa məsələdə güzəşt ölkədə vətəndaş müharibəsinin əsasını qoymuş olar ki, bu, müharibədən daha təhlükəlidir.

İndiki dönəmdə mümkün olan addım atəşkəsin müvəqqəti dayandırılması və orduların hazırkı mövqelərində qalmasıdır. Ukrayna bilir ki, gec-tez bunu ondan tələb edəcəklər. Ona görə də imkan yaranmışkən daha böyük ərazini ruslardan təmizləməyə çalışır. Rusiyada da çox ciddi gərginlik var. Putinin ətrafındakılar üzücü müharibədən yorulublar. Amma sovet ideologiyası ilə yaşayan Kreml hələ də qisasçılıq hissindən əl çəkə bilmir. Hər halda Türkiyə lideri şəxsi təşəbbüsləri ilə müharibəni dayandırmaq üçün əlindən gələni edəcək. Əgər anlaşma olarsa, gələn ay liderləri bir masa arxasına əyləşdirmək mümkün hala gələr. İki ölkə də anlayır ki, savaş onlar üçün fəlakət və sağalmaz yaradır".

**İsmayıl Qocayev**

# Kreml heç vaxt imzasına hörmət etməyib

## Rusiya mediasında yenə anti-Azərbaycan yelləri əsəcək

**Azərbaycan ilə Rusiya arasında hökumətlərin beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlığı haqqında saziş təsdiqlənib. Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb. Azərbaycanın Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Hökumətinə bildiriş göndərəcək.**




Saziş 2022-ci il iyunun 24-də Bakı şəhərində imzalanıb. Mütəxəssislərin sözlərinə görə, burada informasiya boşluğundan və texniki təhlükəsizlikdən söhbət gedir. Dünyanın inkişaf etmiş ölkələri belə kiber təhlükəylə üzləşirlər. Azərbaycan da bu təhdidlərlə mübarizə aparmaq məcburiyyətində qalır. 44 günlük müharibə başa çatsa da, informasiya cəbhəsində müharibə bitməyib. Dövlətin strateji qurumlarının informasiya təminatını həyata keçirən saytlara kiber hücumlar təşkil olunur.

Həmçinin, ölkəmizlə bağlı qərəzli, cəmiyyətdə çaşqınlıq yaradan informasiyalar yayırlar. Müharibə və sonrakı dönəmdə Rusiya mətbuatında ölkəmizə qarşı çirkin kampaniya aparıldı. Onların arxasında təbii ki, erməni lobbisi dayanırdı. Lakin hücumlar Rusiyadan edilirdi. Rusiyanın bəzi media qurumlarında Azərbaycanda informasiya çaşqınlığı yaratmaq məqsədilə qərəzli yazılar dərc olunurdu. Bunlar da kiber təhlükəsizliyə aid məqamlardır. Biz heç bir halda başqa ölkənin daxili işlərinə, xarici siyasətinə qarışmırıq. Ölkəmizə qarşı neqativ addımlar atılsa da, Azərbaycan sağlam əməkdaşlıq yolunu seçir. O baxımdan hesab edilir ki, dövlətlərə müqavilə imzalayaraq təhlükənin müəyyən qismini aradan qaldırmaq mümkündür. Lakin Rusiya ilə bağlı tərəddüdlər olanlar da az deyil.

**Media eksperti Azər Həsrət "Şərq"ə bildirib ki, Rusiya ilə imzalanan sazişə bir qədər şübhəli yanaşmaq lazımdır. Ekspertin fikrincə, Rusiya elə bir dövlətdir ki, öz öhdəliklərinə əməl etməməsi ənənəsi formalaşıb.** Azərbaycan Prezidenti deyir ki, "Sözümüz imzamızdır" və məsələ bununla həll olunur. Hətta rəsmi sənəd imzalanmasa belə Azərbaycan dövlət başçısının sözü artıq məsələnin həlli və öhdəliyin yerinə yetiriləcəyi deməkdir. Amma Rusiyada belə ənənə yoxdur. O baxımdan Rusiya ilə imzalanmış sazişlə bağlı çox da xoş ifadələr işlədə bilmirik. Xatırlayırsızsa, saziş imzalanandan dərhal sonra Rusiya mediasında anti-Azərbaycan yelləri əsməyə başladı. Halbuki, Rusiya hökuməti nəzarətində olan media qurumlarına tapşırıq verərdi ki, "Azərbaycanla saziş imzalamışıq, bu cür neqativ hərəkətlərdən çəkinin". Lakin əfsuslar ki, əksini müşahidə etdik. Xüsusən, M.Simonyanın başçılıq etdiyi media qurumları anti-Azərbaycan kampaniyasını bu gün də davam etdirirlər. Özü də təkcə Rusiya daxilində deyil, bir neçə başqa ölkələrdə də çirkin fəaliyyətlərini sürdürürlər. Ermənistandakı "Sputnik Armeniya" erməni mediası kimi Azərbaycana qarşı kampaniyalarda başda gedir. Ona görə də Rusiya ilk növbədə sazişdən irəli gələn tapşırıqları yerinə yetirməlidir. Nəticələrin necə olacağını zaman göstərəcək. Hələlik mən çox ümidli deyiləm. Məşhur deyim var: - "Ruslarla imzalanmış istənilən müqavilə su üzərinə yazılmış yazı kimidir". Rusiya dövləti özünə hörmət edirsə, bu sazişdən irəli gələn öhdəliklərinə əməl etməlidir. Əks təqdirdə Azərbaycanın atacağı addımlar bəllidir. Ümid edək ki, heç olmasa, bu anlaşmadan sonra Rusiya anti-Azərbaycan kampaniyalarını dayandıracaq".

**İsmayıl Qocayev**

# 3 gündür icazə verilmir

## 570 nəfər azərbaycanlı zəvvar İran-İraq sərhədində qalıb

**Azərbaycanlı zəvvarlar İran-İraq sərhədində qalıb. Bu barədə "Şərq"ə hazırda sərhəddə olan zəvvarlardan Tahir Cəfərov məlumat verib.**

T.Cəfərov bildirib ki, Azərbaycandan İraqın Kərbəla şəhərinə ziyarətə gedən zəvvarlardan 570 nəfər 3 gündür ki, İran-İraq sərhədində saxlanılıb və İraq ərazisinə buraxılmır. "Biz bunun səbəbini bilmirik. Sənədlərimiz qaydasındadır. Niyə sərhəddən buraxılmadığımıza dair bizə heç bir məlumat verilmir, səbəb açıqlanmır. 3 gündür ki, sərhəddə xeymələrdə (çadırlarda) yaşayırıq. İraq ərazisinə buraxılıb-buraxılmayacağımızı da bilmirik. Çünki dəqiq bir söz deyilmir. "Bu gün, sabah..." deyirlər, vaxt keçir.

T.Cəfərov hazırda zəvvarların İranla-İraq arasındakı "Xosrovi" keçid məntəqəsində olduqlarını bildirdi. Zəvvarın dediyinə görə, İraq tərəfi azərbaycanlı zəvvarların girişinə qadağa qoyub. T.Cəfərov güman edir ki, bəlkə də qadağaya səbəb hazırda Kərbəla istiqamətində zəvvar axınının güclü olmasıdır. Ola bilsin ki, İraq dövləti axının bir qədər seyrəlməsini gözləyir, növbəti zəvvar qruplarının ölkəyə girişinə bundan sonra icazə veriləcək.



İraq səfərləri rəsmi səviyyədə təşkil olunmadığından zəvvarlar oxşar problemlərlə tez-tez qarşılaşır. İraq, Nəcəf-Kufə-Kərbəla ziyarətləri adətən fərdi şirkətlər, fərdi şəxslər tərəfindən təşkil edilir. Qafqaz Müsəlmanları İdarəsi isə regionda baş verən məlum hadisələr səbəbindən zəvvarlara Kərbəla ziyarətindən çəkinməyi tövsiyə edir.

**Məlahət**

# Türkmənistanın qapıları döyülür

## Rusiya öz qazını bu ölkə üzərindən Pakistan və Hindistan bazarlarına çıxarmaq istəyir




**Rusiya Avropaya qazın nəqlini azaltmaq məcburiyyətində qaldıqdan sonra yeni bazarlar axtarmağa başlayıb. Əsas alternativ bazar Çindir. Rusiya Sibirdən Çinə boru xətti çəkib və ikincisini də inşa etmək istəyir. Kreml başqa qonşu ölkələrlə də bu sahədə əməkdaşlığı genişləndirməyə çalışır. Belə ölkələrdən biri Türkmənistandır.**

Rusiyanın "Qazprom" şirkətinin rəhbəri Aleksey Miller bir müddət əvvəl Aşqabada gedərək ölkə rəhbərliyi ilə fikir mübadiləsi aparıb. Miller Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovla enerji sahəsindəki əməkdaşlıq məsələlərini müzakirə edib. Rusiya Türkmənistan üzərindən Cənubi Asiya ölkələrinə qaz nəql etmək istəyir. Bunun üçün Türkmənistanın qaz infrastukturundan istifadə ediləcək. Bu ideyanı gerçəkləşdirmək üçün yeni boru xətləri də çəkilməlidir.

**Politoloq Elxan Şahinoğlu bildirib ki, Kremlin Türkmənistana ehtiyacı yaranıb. Analitikə görə, Rusiya Prezidenti Vladimir Putinin keçmiş türkmən həmkarı Qurbanqulu Berdiməhəmmədova orden verməsi təsadüfi deyil:** "Görünür, Putin hesab edir ki, hazırkı prezident atasının məsləhəti ilə dövləti idarə edir. Rusiya qazının Türkmənistan ərazisindən Cənubi Asiya ölkələrinə nəqli təklifinə Aşqabadın necə cavab verəcəyi bəlli deyil. Türkmənistan özü qaz ölkəsidir və yeni bazarlar axtarır. Türkmənistan İran üzərindən Azərbaycana qaz nəql edir və türkmən qazı Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropa bazarlarına çatdırılmağa başlanıb. Avropa daha çox türkmən qazının nəqlini istəyir. Ancaq bunun mümkün olması üçün Xəzərin dibi ilə boru xətti çəkilməlidir. Bu isə Rusiya və İranın əngəllərinə görə mümkün deyil. Türkmənistanın özü də dənizin dibi ilə boru xəttinin çəkilişinə maraq göstərmir. Bu isə Rusiyanın maraqlarına cavab verir.

Rusiyanın özü də Türkmənistandan qaz alır. Kremlin məqsədi başqa ölkələrin Türkmənistanda mövqelərinin möhkəmlənməsinə mane olmaqdır. Ancaq Avropa bazarını itirməkdə olan Rusiyanın Türkmənistan qazını alması çətinləşib. Rusiya türkmən qazını alıb Avropaya satırdı. Hazırda isə Rusiya öz qazını Avropaya sata bilmir. Türkmənistan və Rusiya Çinə qaz satırlar. Əslində Rusiya və Türkmənistan Çin bazarında rəqibdirlər".

**E.Şahinoğlu bəyan edib ki, Rusiya Türkmənistan üzərindən Pakistan və Hindistan bazarlarına da çıxış imkanı əldə etmək istəyir:** "Siyahıda Əfqanıstan da var. Rusiyanın Türkmənistandakı səfiri Aleksandr Bloxin "Qazprom" sədrinin Aşqabada səfərindən bir neçə gün sonra açıqlama verərək iki ölkənin qaz bazarında bir-birinə rəqib olmadığını iddia edib: "Biz əməkdaşlıq edirik. Rusiya Türkmənistandan müəyyən həcmdə qaz alır. Bu, hər iki dövlətin maraqlarına cavab verir". Səfirin sözlərinə görə, Avropaya qaz nəqlini dayandırdıqdan sonra Rusiya və Türkmənistan üçün əsas bazarlardan biri Çindir. Rusiyanın Türkmənistandakı səfiri Aşqabadın əvəzinə də açıqlamalar verib. Səfir demək istəyib ki, Rusiya bəlli səbəblərdən Türkmənistandan qaz ala bilməyəcəksə, hər iki ölkə qazın tamamını Çinə istiqamətləndirəcəklər. Türkmənistan onsuz da Çinə qaz ixrac edir. Ancaq Aşqabad Avropa bazarına da çıxış əldə etmək istəyir. Rusiyanın səfiri isə Aşqabadı xəbərdar edir ki, "Avropa bazarını unudun".

**İsmayıl**

# Nəticələrini görürük

## Ukrayna sağ göstərib, sol vurur!

**"Ukrayna rəsmiləri may-aprel aylarında avqustun sonu, sentyabrın əvvəllərində əks-hücuma keçəcəklərini bildiriblər".**

**Bu sözləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Kənan Novruzov deyib. Onun sözlərinə görə, hazırda da Ukraynada antiterror əməliyyatları davam edir:** "Bunu sübut edən əsas faktor ABŞ və müttəfiqlərinin Ukraynaya dəstəyidir. Rəsmi Kiyev özü də başa düşür ki, sadəcə qurbandır. Orada ölən insanlar, dağıntılar heç də rəsmi Vaşinqton və müttəfiqlərini düşündürmür. Sadəcə, müharibənin davam etməsini və bu yolla Rusiyanın zəifləməyini istəyirlər. Savaşın müddəti uzandıqca rəsmi Moskva iqtisadi cəhətdən qüvvətdən düşür.



> "Düşünürəm ki, bir müddət sonra Rusiyanın daxilində də əhali ayağa qalxacaq"

Digər tərəfdən iki slavyan xalqının arasında nifaq salır, Şərqi Avropaya sağalmaz yara vururlar. Eyni zamanda etnik həmrəyliyi pozurlar. Bundan başqa, son vaxtlar hər gün müxtəlif istiqamətlərdə - Xarkov, Kiyev vilayətləri və başqa şəhərlərdə partlayışlar olur. Bu, əslində Ukraynanın əks-hücuma başladığının təzahürüdür. Həmin partlayışların böyük əksəriyyətini rəsmi Kiyev ordusu həyata keçirir. Son vaxtlar Volodimir Zelenski, həmçinin onun komandası qərblə bağlı daha loyal bəyanatlar səsləndirirlər. Əvvəllər az qala hər gün Qərbin Ukraynanı aldatdığını, silah vermədiyini deyirdilər. Axır zamanlar bu kimi açıqlamaların sayı azalıb. Bu da onu göstərir ki, Qərb həqiqətən də Ukraynanı silahla təmin edib. Buna köməklik göstərir demək doğru olmaz. Sadəcə, silah-sursat verdiyi kimi vuruşmağını da tələb edir. Amma rəsmi Kiyevin müharibəni dayandırmaq, danışıqlar masasına oturmaq şansı yoxdur. Çünki bu halda rəsmi Vaşinqton silah təminatını dayandıracaq".

**K.Novruzovun qənaətincə, Ukraynanın başlatdığı antiterror əməliyyatları oktyabrın sonu, noyabrın əvvəllərindən etibarən çox ciddi ərazilərdə dönüş yaradacaq:** "Bu yaxınlarda Ukrayna bayrağının Luqanskda sancılması xəbəri yayıldı. Bu, Rusiya üçün mənəvi, psixoloji zərbədir. Çox güman ki, eyni senari Donetskdə də təkrarlanacaq. Böyük ehtimalla Krım körpüsü vurulacaq. Beləliklə, rəsmi Moskva logistik baxımdan çox ciddi zərbə alacaq. Çoxları Ukraynanın Xarkov istiqamətindən hücuma keçəcəyini gözləmirdi. Rəsmi Kiyev sağ göstərib, sol vurmadı. Nəticələrini də görürük. Artıq düşünürəm ki, bir müddət sonra Rusiyanın daxilində də əhali ayağa qalxacaq. Rəsmi Moskvanın hərbi elitasında da fikir ayrılıqları aydın şəkildə hiss olunur. Polkovnikinin, generalının Ukraynada əsir düşməsi artıq Kreml ordusunda nizamsızlıqdan irəli gəlir. Bu mənada hesab edirəm ki, Ukraynanın xeyrinə çox ciddi nailiyyətlər əldə olunacaq".

**Sücayət Mehti**

# ABŞ regionda daha da möhkəmlənmək istəyir

## Filip Rikerin Ermənistanda üç gün müzakirə aparması bir mesajdır



**Siyasi şərhçi:** "Vaşinqtonun regiona və münaqişəyə baxışı Bakı üçün heç də məqbul və konstruktiv deyil"

**ABŞ Dövlət Departamentinin Qafqaz üzrə yeni baş məsləhətçisi Filip Riker regiona səfəri çərçivəsində Ermənistanda olub. Rikerin Ermənistana səfəri çərçivəsində üç gün bu ölkədə qalması diqqət çəkib. Riker İrəvanda Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb.**

Tərəflər Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasını müzakirə edib. Ümumiyyətlə, ABŞ mövcud münaqişənin qısa zamanda bitməsini və tərəflər arasında sülhün əldə edilməsini istəyir. Digər tərəfdən Vaşinqton vasitəçilikdə Moskva və Brüsseldən geri qaldığını da yaxşı başa düşür. Ona görə də rəsmi Vaşinqton Filip Rikeri bölgəyə göndərir və bununla "bölgədə biz də varıq" mesajını verməyə çalışır.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə deyib ki, Vaşinqtonun regiona və münaqişəyə baxışı Bakı üçün heç də məqbul və konstruktiv deyil.** Həmsöhbətimiz vurğulayıb ki, amerikalı diplomat səfəri çərçivəsində bu ölkənin Xarici işlər naziri Ararat Mirzoyanla da görüşüb. Mirzoyan Filip Rikerlə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasıyla yanaşı, Qarabağ mövzusunu da müzakirə edib: "Əlbəttə ki, Riker səfər çərçivəsində istədiyi erməni rəsmisi ilə görüşə bilər, lakin istədiyi mövzunu müzakirə edə bilməz. Xüsusilə də Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasında maraqlı olan bir ölkə indiki məqamda İrəvanda rəsmi Bakının qırmızı xətti olan Qarabağ mövzusunu müzakirə etməməlidir. Qarabağ Azərbaycanın beynəlxalq hüquqla tanınan əraziləridir və bu mövzu üçüncü ölkələrin müzakirə predmeti ola bilməz. Rikerin erməni rəsmilərlə bu mövzunu müzakirə etməsi özlüyündə ərazi bütövlüyümüzə hörmətsizlikdir. Riker Ermənisana səfəri çərçivəsində Ermənistan parlamentinin vitse-spikeri Ruben Rubinyanla görüşüb. Tərəflər Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesinin hazırkı mərhələsindən bəhs edib. Rubinyan Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesinin hazırkı mərhələsini və Ermənistanın mövqeyini Filip Rikerə təqdim edib. Görüş zamanı Ermənistan və Türkiyənin xüsusi nümayəndələrinin əldə etdiyi razılaşmaların həyata keçirilməsinin vacibliyi də vurğulanıb".

**T.Rzayev vurğulayıb ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması ABŞ üçün də maraqlıdır:**
"Ermənistanın Qərbə inteqrasiyası və Rusiya təsirindən çıxması üçün bu, həyati əhəmiyyət kəsb edən məsələdir. Türkiyə-Ermənistan sərhədinin bağlı olması hazırda bu prosesə əsas maneədir. Ankaranın mövqeyi isə bu məsələdə Bakı ilə eynilik təşkil edir. Bu baxımdan Rubinyan Rikerdən Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasında ABŞ-ın vasitəçi olmasını istəyə bilər. Bununla belə, Türkiyənin bu məsələdə mövqeyinin dəyişəcəyini düşünürəm. Bakı və Ankara strateji tərəfdaşdır və Ermənistan-Azərbaycan münasibətləri normallaşmadığı təqdirdə Ermənistan-Türkiyə münasibətlərinin də normallaşması real deyil. Digər tərəfdən, ABŞ-ın bu məsələyə də yanaşması konstruktiv deyil. Məsələ ondadır ki, Filip Riker Ermənistana səfəri çərçivəsində ilk olaraq qondarma "erməni soyqırımı" memorialını ziyarət edib. Baydenin "soyqırım" ifadəsini dilə gətirməsindən sonra Rikerin də memorialı ziyarət etməsi Vaşinqtonun bu məsələyə real yanaşmasını göstərir".

**İsmayıl Qocayev**

# Bakıda istismar müddətini bitirmiş binalar çoxdur

## Söküntü işləri aparılarkən vətəndaşların haqqı tanınmalıdır

**Şəymən Bayramova**



**Bakının Sabunçu rayonu ərazisində qəzalı vəziyyətdə olan binanın sakinləri acınacaqlı vəziyyətlə üzləşiblər.**

Sakinlər bildiriblər ki, 1880-ci ildə tikilmiş binada yaşamaq həddən artıq təhlükəlidir. Sabunçu qəsəbəsi, H.B.Zərdabi (S.M.Əfəndiyev) küçəsində yerləşən 13-cü binanın sakinləri 142 yaşı olan tikilidən nə vaxt canlarını qurtaracaqları günü səbirsizliklə gözləyirlər.

Məsələ ilə bağlı aidiyyəti qurumlara müraciət etsələr də, onlara bu istəklərinin nə vaxt reallaşacağı barədə cavab verilməyib.

Bakı şəhəri Sabunçu Rayon İcra Hakimiyyətinin mətbuat xidmətindən isə "Baku. ws"a bildirilib ki, qəzalı bina barədə məlumatlıdırlar: "Bakı şəhəri üzrə qəzalı vəziyyətdə olan binaların siyahısı hazırlanaraq aidiyyəti qurumlara göndərilib. Hazırda rayon ərazisində vəziyyəti barədə akt tərtib olunan binaların sayı 19-dur. Bu binalara Fövqəladə Hallar Nazirliyi akt tərtib edib. Digər tərəfdən, 17 binanın təmir-bərpa işlərinə ehtiyacı olduğu müəyyən edilib. Ümumilikdə isə qəza aktı olmayan 177 bina var. Onlar barəsində siyahılar tərtib olunaraq aidiyyəti qurumlara təqdim edilib və bu barədə qərar veriləcək.

**Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev isə hesab edir ki, istismar müddətini bitirmiş binaların sökülməsi zamanı tikinti şirkətləri ilə vətəndaşlar arasında yaşanan narazılıqlar daşınmaz əmlak bazarının ən aktual problemlərindəndir.**

*Ekspert "Şərq"ə açıqlamasında qeyd edib ki, istismar müddəti bitmiş binalar sökülməli olsa da, burada vətəndaşın mülkiyyət hüququ pozulmamalıdır:* "Əksər hallarda tikinti şirkətləri daha çox qazanmağa çalışırlar. Binada yaşayanların müəyyən hissəsinin razılığı alındıqda razılaşmayanlara qarşı qanunazidd hərəkətlər edilir. Sahibkarların söküntüyə təyin etdiyi məsul şəxs digər sakinlərin müqaviləyə imza atması üçün onun mülkiyyətinə qarşı qanunsuz hərəkətlər edirlər.

Bakıda istismar müddətini başa vurmuş binaların sökülməsi daha əvvəlki kimi pilot layihə üzərindən aparılmır. Onun sözlərinə görə, Bakıda 100-dən artıq qəzalı kimi qeydə alınmış bina var. Bu binalar sökülərək yerində yenisi inşa olunmalıdır. İndi bu işi özəl şirkətlər həyata keçirir. Burada isə haqlı və haqsız narazılıqlar yaranır.

Nazirlər Kabinetinin 86 saylı sərəncamı ilə 2016-cı ildən Bakıda istismar müddətini bitirmiş binaların sökülməsi, yeni binalarla əvəzlənməsi prosesinə başlanıldı. Həmin ildən bəri Bakıda çox sayda bina sökülüb və yeniləri tikilərək vətəndaşlara təhvil verilib. Bakıdakı köhnə binaların böyük əksəriyyəti istismar müddətini bitirib. Tikinti şirkətləri isə harda geniş həyəti olan binalar varsa, onları sökməyə başladılar. Bu səbəbdən istismar müddətini bitirmiş binaların söküntüsü dayandı. Növbəti mərhələdə sırf qəzalı vəziyyətdə olan, yəni Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən qəzalı olduğu qeydə alınan binaların söküntüsünə icazə verilməsinə başlanıldı. Bakıda qəzalı vəziyyətdə təkcə çoxmənzilli yaşayış binası deyil, fərdi həyət evləri də var".

# "Jurnalistika konkret bir missiyadır"

## Qulu Məhərrəmli: "Reket jurnalistikası" ifadəsi kökündən yanlışdır"



**"Reket jurnalistikası" ilə məşğul olanlar əksər hallarda sosial mediada yalan xəbərlər yaymaqla cəmiyyətdə ajiotaj yaradırlar. Ölkəmizdə də "reket jurnalistlərin" sayı az deyil".**

*Bunu "Şərq"ə açıqlamasında BDU-nun Jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli deyib. Professor bildirib ki, jurnalistikada reketçiliklə məşğul olan ayrı-ayrı dələduzlar var:* "Onlar öz məqsədlərinə çatmaq üçün jurnalistin, polisin, həkimin, hətta təhlükəsizlik orqanlarının adlarından da istifadə edirlər. Bəzən bu adamlar gündəmə gəlir, tənqid olunur, bəzənsə sakitcə öz işlərini davam etdirirlər.

Bu dələduzlar şantajla məşğuldurlar. İnsanların şəxsi həyatlarına müdaxilə edir, haqlarında informasiyalar toplayır və sonra onlara hücum edirlər. Mətbuat azadlığı bəzən bu cür şəxslərə imkan yaradır.

Dələduzlar bunu bəhanə edib ayrı-ayrı tanınmış jurnalistlərin üzərinə hücum edirlər. Bir çox hallarda tənqid edən jurnalistlərin adını reketçilikdə hallandırır, istedadlı, vicdanlı jurnalistlərə "reket" adını yapışdırmağa çalışırlar.

Bu, qətiyyən qəbuledilməzdir. Jurnalistika konkret bir missiyadır. Jurnalistin işi cəmiyyətdəki nöqsanları tənqid etmək, hakimiyyətin diqqətini problemlərə cəlb etməkdir. "Reket jurnalistikası" ifadəsi isə kökündən yanlışdır. Reket və jurnalistika anlayışları bir-birinə ziddir".

**Günəş Mərd**



# Böyük gəlir gətirəcək

## Kruiz səyahəti üçün Azərbaycanın çox geniş imkanları var



**Fuad İbrahimov:** "Təsəvvür edin ki, bir gəmi ilə bəlli bir qiymətə 6-7 ölkəyə səfər edilir"

**Azərbaycanda gəmi-kruiz turizmi üçün böyük potensial var. Bunu "Trend"ə Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının sədr müavini Əhməd Qurbanov deyib. Onun sözlərinə görə, hazırda dünyanın sahilyanı ölkələri kruiz turizminin inkişafına böyük önəm verirlər.**

"Okeana, dənizə çıxışı olan dövlətlər üçün gəmi-kruiz turizmi əsas gəlir sahələrindəndir. Xəzər beş sahilyanı dövləti birləşdirmək baxımından kruiz turizm imkanları mövcuddur. Bundan başqa gəmi-kruiz turizmi gəlirli turizm növlərindən biridir. Xəzərsahili kruiz səfəri üçün turistlərin cəlb ediləcəyi yerlər kifayət qədərdir. Bu marşrutlar işə düşərsə ölkəmizə gələcək turistlərin sayında artım olacaq. Belə ki, Xəzər dənizində və yaxın ətrafda gəzməli-görməli yerlər kifayət qədərdir. Dənizdə adalar, enerji mənbələri və s. kimi marağa səbəb ola biləcək resurslar turistləri cəlb edə bilər", - deyə Ə.Qurbanov bildirib.

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında "kruiz" səyahətinin turizmdə ən əlverişli səyahət növü olduğunu dedi:**

- Təsəvvür edin ki, bir gəmi ilə bəlli bir qiymətə 6-7 ölkəyə səfər edilir. Mən indiyədək 15 dəfə açıq okeanda səyahət etmişəm. Və sizə deyim ki, gəmi səyahəti digər heç bir səyahət növü ilə müqayisəyəgəlməz dərəcədə gözəldir, rahatdır. Həm də sərfəlidir. Gəmi səyahəti barədə turizm sektorunda çalışanlarla dəfələrlə söhbətimiz olub. Amma nədənsə, bizdə hələ də bu səyahət növü reallaşmır. Xatırladım ki, bir müddət əvvəl Rusiyanın Həştərxan vilayətinin qubernatoru da bu haqda danışmışdı. Demişdi ki, Azərbaycanla Rusiya, xüsusilə də Həştərxan vilayəti arasında kruiz əlaqəsi üçün böyük potensial var. Bu məsələ Xəzəryanı tərəfdaşlarla iki ildir müzakirə edilir. Rusiya tərəfi kruiz üçün ilkin olaraq teploxodla səyahət təklif edir. Sovet vaxtı da Volqa çayı boyunca kruiz təşkil edilirdi. Kruiz səyahəti üçün Azərbaycanın da geniş imkanları var. Kruiz səyahətinin əlbəttə, bir çox üstünlükləri var. Bu, böyük gəlir gətirən sahədir. Azərbaycanla digər Xəzəryanı ölkələr arasında kruiz əlaqələrinin - gəmi ilə səyahət marşrutunun açılması, ilk növbədə bölgələrin inkişafına böyük təkan verəcək. Kruiz 3 istiqamətdə təşkil oluna bilər; Şimal bölgəsi - Quba, Qusar, Xaçmaz, mərkəzi bölgə - Sumqayıt, Bakı, Salyan, Neftçala və cənub bölgəsi Lənkəran, Masallı. Təsəvvür edin ki, gəmi səhər saatlarında limana yan alır və bir dəfəyə əraziyə 300-500 turist axın edir. Bu, iaşə obyektlərini də dirçəldəcək, muzeyləri, suvenir satışını da. Turistlər nəsə almaq istəyir, hədiyyə, suvenir həvəsində olurlar. Tarixi yerləri gəzirlər. Ölkəmizi, tariximizi tanıdırıq, həm də gəlir əldə edirik. Görün, ölkəyə nə qədər kapital axını baş verəcək. Həmçinin kruiz əlaqələri üçün limanlar da uyğun olmalıdır. Bu da o deməkdir ki, gəmiçilik də inkişaf edəcək, limanlar da müasir standartlara uyğunlaşacaq.

**F.İbrahimov qeyd etdi ki, kruiz səyahət növünün qiymətləri baha olmamalıdır:**

- Onu deyim ki, nəhəng laynerlərin Xəzər dənizində üzmək imkanı yoxdur. Məsələn, dünya dənizlərində, okeanlarda üzən laynerlərlə kruiz səyahətinin qiyməti maksimum 900-1200 avro arasındadır. Amma bu laynerlərdə gün ərzində 3 dəfə yemək verilir, hər gün də bir Avropa şəhərində dayanır. Bir gün Amsterdam, bir gün Kopenhagen, bir gün Oslo... Xəzəryanı dövlətlərin kruizə cəlb edilməsi böyük iqtisadi gəlir deməkdir. Biz bu səyahət növünün tezliklə reallaşmasına çalışmalıyıq. Çünki bu, Azərbaycan üçün sərfəlidir. Amma qiymətlər də münasib olmalıdır.

**Məlahət Rzayeva**

# ABŞ Azərbaycanda minatəmizləmə əməliyyatına vəsait ayırıb

## "Müştərək maraqlar bu ölkələri strateji tərəfdaş xəttinə salır"

**Günəş Mərd**



**ABŞ Ermənistan-Azərbaycan münaqişəsindən zərər çəkmiş ərazilərdə minalardan təmizləmə əməliyyatları üçün iki milyon dollar ayırır. Bu barədə ABŞ Dövlət Departamentinin mətbuat xidmətindən məlumat verilib. Məlumatda deyilir:**

"ABŞ-ın yeni maliyyəsi minaları və partlamamış hərbi sursatları təmizləmək üçün minatəmizləmə təşkilatlarının texniki imkanlarını gücləndirməyə davam edəcək. Bu səylər insanların təhlükəsizliyinin yaxşılaşdırılması və məcburi köçkünlərin öz evlərinə qayıtmasına və həyatlarını təhlükəsiz şəkildə bərpa etməsinə imkan yaratmaq üçün çox vacibdir".

**Analitik Aqşin Kərimov bu barədə "Şərq"ə danışarkən bildirib ki, hazırda ABŞ-Azərbaycan münasibətlərində bir neçə istiqamət üzrə fikir ayrılıqları mövcuddur:**

"ABŞ Azərbaycanın Rusiya ilə Qərb arasındakı balanslı mövqeyindən bir qədər narahatdır və onu öz tərəfinə çəkməkdə maraqlıdır. Rəsmi Vaşinqtonun bu qarışıq arzuları isə Azərbaycanın təhlükəsizlik çağırışlarına uyğun deyil. Digər tərəfdən ABŞ Azərbaycan-Türkiyə-Rusiya üçbucağındakı birgə maraqların inkişafını çox da istəmir. Deməli, məntiqlə Türkiyənin regiondakı iştirakının yalnız Ağ Evin reseptləri əsasında güclənməsində maraqlıdır. Bunlardan başqa, digər sahələrdə Azərbaycanla ABŞ-ın üst-üstə düşən maraqları var. Müştərək maraqlar rəsmi Bakı və Vaşinqtonu strateji tərəfdaş xəttinə salır və bu xətt enerji təhlükəsizliyindən tutmuş beynəlxalq terrorizmlə qarşı mübarizəyə qədər geniş bir sahəni əhatə edir. ABŞ Qarabağdakı yenidənqurma işlərinə töhfə vermək niyyətini özünün humanitar çağırışları ilə assosiasiya edir. Ona görə də minatəmizləmə əməliyyatlarına vəsait ayırır. Lakin ABŞ-ın Qarabağda və Şərqi Zəngəzurdakı iqtisadi layihələrə sərmayə qoyması onun Azərbaycan hökuməti ilə razılaşmasından asılıdır. Sırf bu məsələdə insan hüquqlarına baxış və idarəetmədəki yanaşma fərqləri ABŞ-ı sərmayə qoymaqdan çəkindirir.

ABŞ hesab edir ki, Azərbaycanda məhkəmə sistemi müstəqil olmalıdır və investisiya yatıran gələcəkdə məhkəmə predmetinə məruz qalarsa, onun sərmayəsi batmamalıdır. Bütün bunlara baxmayaraq indi Azərbaycan-ABŞ münasibətlərinin artan şkala üzrə özünün yeni dövrünü yaşadığını deyə bilərik".

# Valideynlər nəfəs ala bilər, məcburiyyət olmayacaq

## Şagirdlər ötən ilki formaları ilə məktəbə gedə bilərlər



**Yeni tədris ilinin başlanmasına 48 saatdan da az vaxt qalır. Nə dərsi düşünən var, nə keçiləcək mövzuları, nə təhsilin keyfiyyətini. Hamının başı məktəbli formasına qarışıb. Valideynlər Bakı Tikiş Evinin qarşısına toplaşır, izdiham yaranır, mağazalara axın var, amma forma yoxdu. Məktəb direktorları isə "forma "bu" rəngdə olmalıdır", deyib, iki ayağını bir başmağa dirəyir, valideynlərin mobil telefonlarına mesajlar göndərirlər.**

Valideynlər də düşüblər küçələrin canına. Hələ ayağı məktəb kandarına dəyməmiş balalarına hardan olursa-olsun yeni, məktəbin tələb etdiyi rəngdə geyim tapmaq üçün çapalayırlar. Nədir bu zillət? Və niyə, nə üçün? Təhsil naziri Emin Əmrullayevin məktəbli formaları ilə bağlı bir neçə açıqlaması olub: "Əgər məktəbli formaları ilə bağlı məcburiyyət halı və faktı olsa, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, eləcə də regional təhsil idarələrinə müraciət edilsin. Bu halda məsələyə baxıla və ölçü götürülə bilər", "direktorun da ixtiyarı yoxdur ki, şagirdi hansısa forma geyinməyə məcbur etsin". Amma sanki onu dinləyən yoxdur. Məktəb direktorları öz qanunları ilə hərəkət edir. Onlara bu sərbəstliyi verənlər var, bu barədə yazacağıq. Öncə isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni məktəbli formalarının tətbiqi ilə bağlı 17 mart 2022-ci il tarixli məlum qərarını bir daha açıqlamağa məcburuq.

"Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"nin təsdiq edilməsi haqqında"

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanının 1.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar 2022/2023-cü tədris ilindən tətbiq edilir.

3. Hazırda istifadədə olan geyim formaları 2022/2023-cü tədris ilinin sonunadək tətbiq edilə bilər.

Əli Əsədov

*Azərbaycan Respublikasının Baş naziri. Bakı şəhəri, 17 mart 2022-ci il*

Göründüyü kimi Baş nazir hazırda istifadədə olan geyim formalarının - yəni, əziz valideynlər, ötən il, bəlkə ondan da əvvəl aldığınız məktəbli formalarını (əlbəttə, əgər uşağın bədən ölçülərinə uyğundursa) hələ ki, övladınıza geyindirə bilərsiniz. Sizdən mütləq yeni məktəbli forması tələb edən məktəb direktoru, sinif müəlliminə Baş nazirin qərarını xatırladın. Kobud deyim, gözlərinə təpin! Valideynlərin yeni məktəbli forması almaq canfəşanlığı da səbəbsiz deyil. Övladı birinci sinfə gedən, yaxud ötən il geyindiyi forma əyninə artıq dar gələn məktəblinin valideyni, tamamilə doğru olaraq, məntiqi nəticə çıxarır: indi əvvəlki model forma alsam, məcburam yeni ildə, yeni modeldə olanı alım. Bu, ikiqat xərcdir. Ona görə də özünü BTE-yə, mağazaya "vurur"ki, bəri başdan, birdəfəlik yenisini əldə etsin. Bir dəfə xərci çıxsın. Məktəbli geyimi dəstinin qiyməti 100 manata çatır. Uzunqol, qısaqol köynək, polo, ətək, şalvar, jaket, jilet Məktəbli forması ilə məsələ bitmir. Məktəb ləvazimatı da almaq lazımdı. Amma yox, məktəbli formasını gəlirli, çoxillik qazanc mənbəyinə çevirənlər heç qoyarmı, zavallı kasıb valideyn (lap olsun, imkanlı, niyə iki dəfə məktəbli forması almalıdır?! - M.R.) kasıblığının dərdini çəksin. Bu vurhavurda bir ağıllı adam çıxıb deməlidir ki, ay valideynlər, övladınızı məktəbə gətirin, hansı formada gəlirsə, gəlsin, təki gəlsin. Bizə uşaqlarımızın savadlanmağı, maariflənməyi vacibdir, forma ikinci, üçüncü dərəcəli məsələdir. Hardadı belə ürəkli, ciyərli maarifpərvər?! Vəziyyət bu qədər bəsit və eyni zamanda dəhşətlidir.

**"Bakı Tikiş Evi" ASC-nin satış şöbəsinin müdiri Etibar Əzimovun açıqlamaları da KİV-lərdə geniş yayılıb. E.Əzimov yaranmış vəziyyətin səbəblərini belə izah edir:** "BTE-də gün ərzində 1200-1500 məktəbli forması istehsal edilir. Burada da 2 mağaza fəaliyyət göstərir. Həmin mağazalardan formaların satışı həyata keçirilir. Bununla biz satdığımız məhsula zəmanət verə bilirik. Bu formalar başqa yerdə satılanda bir az baha satılır. "Bravo" supermarketlərinə də 6000 min forma verildi və satıldı. Biz çox məhsul istehsal edə bilmirik. Bir tikiş fabriki Bakıdakı bütün şagirdlərə məktəbli formasını necə istehsal edə bilər?! Biz özəl müəssisəyik. Əsas işimiz hərbi paltarların tikilməsidir. Ona görə də biz bütün işimizi atıb, yalnız məktəbli forması istehsal edə bilmərik. Bu barədə heç bir məsuliyyətimiz yoxdur. Nə Elm və Təhsil Nazirliyi, nə də Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) bizə tapşırıq verib, müqavilə bağlamayıb. Keçən il məktəbli forması istehsal etdiyimiz üçün bu il də istədik ki, bu işə kömək edək. Lakin bir fabrik bütün tələbatı ödəyə bilməz". E.Əzimov "Report"a açıqlamasında isə bildirib ki, yeni məktəbli formaları ilə bağlı qərar gec verilib, ona görə də formaları tikib çatdırmaq mümkün deyil. Bu məsələyə cavabdeh olanlardan heç kim müəssisəyə müraciət etməyib. BTE-nin heç bir qurumla müqaviləsi yoxdur. Dörd rəngdən hansının tikilməsi belə deyilməyib. BTE özəl müəssisədir və kreditlə işləyir. Dövlət yardımı almır. Bir müəssisə Bakı məktəblərinin tələbini qarşılaya bilməz.

**E.Əzimov bütün valideynləri və daha çox Təhsil Nazirliyini, təhsillə bağlı sonu neqativ nəticələrə gətirib çıxaran qərarlar verən strukturları düşündürəcək açıqlama verib:** "İzdihama səbəb məktəb direktorlarının valideynləri məcbur etməsidir: Göndərirlər ki, mütləq alınmalıdır. Niyə? Elm və təhsil naziri də yeni məktəbli formalarının alınmasının könüllü olduğunu deyir. Məcburiyyət yoxdur. Amma məktəb direktorları valideynləri məcbur edirlər. Niyə direktorlar barədə ölçü götürülmür? Niyə onlara başa salınmır ki, valideynləri incitməsinlər. Yaranan ajiotaja səbəb məktəb direktorlarıdır. Anbarımızda köhnə məktəbli formaları var. Amma heç kim istəmir. Hamı yenisini istəyir. Məktəbli formaları 1-4-cü siniflər üçün məcburdur. Yuxarı siniflərdə oxuyan şagirdlərin valideynləri də gəlir ki, forma verin".

**Belə bir bərbad vəziyyət hökm sürür. İyul ayında isə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva jurnalistlərə açıqlamasında belə demişdi:** "Hesab edirəm ki, sentyabr ayından heç bir təzyiq olmadan, əksinə, sevinərək, bu istiqamətdə yaxşı mənzərəni görərək fəaliyyətə başlayacağıq". Sevinməli bir şey yoxdur, yaxşı mənzərə də görünmür. Görünən, forma axtarışında olan valideynlərin əsəb krizi keçirmələridir. Sadə bir məsələnin bu dərəcədə ağrılı vəziyyət almasının bir səbəbi də forma seçiminin məktəb pedaqoji şuralarının öhdəsinə buraxılması, seçimə sərbəstlik verilməsidir. Məsələnin sadə həlli, prosesin ağrısız yürüdülməsi üçün ölkə üzrə bütün orta ümumtəhsil məktəblərində vahid məktəbli formasının - bir rəngdə, bir modeldə - tətbiqi olardı. Problemin başlanğıcı uzun illər əvvəl - liseylər və kimlərsə tərəfindən "əlahiddə" status almış bəzi məktəblərin fərqli məktəbli formasına keçməsi oldu. Bərbəzəyə aludəlik başladı, tədris qaldı kənarda. Həqiqi vahid məktəbli forması tətbiq edilsə, bu qədər narazılıq, söz-söhbət də olmaz. Şagirdlər formalarının rənginə, modelinə görə deyil, bilik və bacarıqlarına görə seçilər. Hardadı, o xoşbəxtlik?!.

**Məlahət Rzayeva**

*P.S. "44 gündə torpaqları işğaldan azad edirik, məktəbli forması labirintindən çıxa bilmirik" sualı ətrafında düşündüyümüz anlarda nəhayət, Elm və Təhsil Nazirliyindən gözlənilən açıqlama gəldi: "2022-2023-cü tədris ilində yeni məktəbli formalarının tətbiqi ilə bağlı hər hansı məcburiyyət yoxdur". Nazirliyin açıqlamasında qeyd olunur ki, şagirdlər ötənilki formaları ilə məktəbə gələ bilər. Bununla bağlı, məktəb direktorlarına şagirdlərdən məktəbli forması tələb etməmələrinə dair müvafiq tapşırıq verilib. Valideynlər məktəbli formaları ilə bağlı hər hansı sual və ya problem olduğu halda Elm və Təhsil Nazirliyinin 146-6, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin isə 146-1 "Çağrı Mərkəzi" ilə əlaqə yaratsınlar.*



**Amerikanın Müharibə Araşdırmaları İnstitutunun (ISW) analitikləri Rusiya-Ukrayna müharibəsini və nəticələri təhlil ediblər. Analitiklərin Ukrayna cəbhəsindəki vəziyyətlə bağlı ənənəvi hesabatında diqqətçəkən məqamlar yer alıb. Qeyd olunub ki, Ukrayna, nəhayət, müharibənin gedişatını öz xeyrinə çevirib:**

# Ukrayna mövqe döyüşləri aparır

## Rusiyanın formalaşdırdığı Donbas oxu artıq çöküb

"Lakin indiki əks-hücumlar da nə vaxtsa dayanacaq. İşğalçı ruslar yeni müdafiə xətti quracaqlar, yerlərdə lokal hücumlar həyata keçirəcəklər. Ukrayna Silahlı Qüvvələri bütün əraziləri azad etmək üçün yeni hücumlar təşkil etməli olacaq. Bu baxımdan müharibə 2023-cü ilə qədər uzanacaq". Vurğulanıb ki, Ukrayna hakimiyyəti Xerson vilayətində əks-hücum əməliyyatına hazırlığı qətiyyətlə müzakirə edir: "Rusların diqqətini əsas hücuma keçiləcəyi ərazilərdən yayındırırlar. Gizlin hazırlıqlar sayəsində plan işə yarayıb. Planın tərkib hissələrindən biri Xerson və Xarkov bölgələrində düşmənin logistika xətlərinə hücumlar idi. Bunun üçün Ukrayna Silahlı Qüvvələri HIMARS və digər Qərb silahlarından səmərəli istifadə edib". Ekspertlərin fikrincə, Ukrayna Silahlı Qüvvələri daha tez-tez döyüş əməliyyatlarının xarakterini və yerini diktə edə biləcək. Rusiya isə ukraynalı müdafiəçilərin həm fiziki, həm də psixoloji təzyiqlərinə getdikcə qeyri-adekvat reaksiya verəcək.

**Müharibə Araşdırmaları İnstitutunun Rusiya-Ukrayna müharibəsindəki son vəziyyətə dair yayımladığı analizi şərh edən siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, Ukrayna Xarkov vilayətində Rusiyanın formalaşdırdığı Donbas oxunu çökdürür:** "Rusiya informasiya siyasətini qura bilmədiyindən Kremlin informasiya məkanı Ukraynanın əks-hücumları ilə çökür. Ukrayna qüvvələri bəzi yerlərdə Rusiya mövqelərinin 70 kilometrə qədər dərinliyinə nüfuz edib. Ümumilikdə Ukraynanın sentyabrın 6-dan bu yana 3000 kvadratkilometr ərazisinin işğaldan azad edildiyi bildirilir. Ukrayna Xarkov vilayətinin şimal-şərqində və İzyumun şimal hüdudlarında Rusiya ilə sərhədin 15-25 kilometrlik mövqelərə çatıb və Kupyanskın qərbini ələ keçirib. Rusiya şərqdəki uğursuzluqların cənub oxuna təzyiq yaratmaması üçün Xersonda və Zoporejyada mövqelərini möhkəmləndirir. Ukrayna isə mövqe döyüşləri aparır və Rusiyanın logistika xətlərinə qarşı maneələr yaradır".

**İsmayıl**

# Qərbin İranla danışıqları daha da intensivləşib

## Neftin bir barelinin qiyməti 65 dollaradək ucuzlaşa bilər



**"Neftin dünya bazar qiyməti ucuzlaşıb. Avqustun son iş həftəsinin ilk günü ilə müqayisədə neft 17 faizdən çox dəyərsizləşib". Bu sözləri millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, neftin qiymətindəki son azalmalar qlobal iqtisadiyyatdakı resessiya riskinin güclənməsi ilə bağlıdır: "Rusiya-Ukrayna müharibəsi kontekstində 2022-ci il üçün qlobal iqtisadi artım proqnozu azaldılıb.**

Avropa İttifaqı üçün də builki proqnozlara yenidən baxılıb. İlin əvvəlində 4 faiz artım proqnozlaşdıran avropalılar bu göstəricini 2.8 faizədək azaldıblar. Bütün bunlar neftə olan tələbin azalacağı ilə bağlı bazar tərəddüdlərini artırıb və bu da qiymətlərdə müşahidə olunmaqdadır. Dünyada ikinci ən böyük neft istehlakçısı olan Çin pandemiya səbəbindən iqtisadi məhdudiyyətləri genişləndirir. Bu isə Çin iqtisadiyyatındakı gözlənilən artımlara nail olmaqda çətinlik yaradır. Sərt qaydalar səbəbindən hazırda Çində 65 milyon insan sərt karantin rejimində yaşayır".

**Parlament üzvü qeyd edib ki, Qərbin İranla danışıqları daha da intensivləşib:** "İrana qarşı sanksiyaların yumşalacağı halda gələn ilin ikinci yarısı neftin bir barelinin qiymətinin 65 dollaradək ucuzlaşacağı istisna edilmir. Bütövlükdə, qlobal durğunluq, bazara daha çox neftin çıxarılması kimi proseslər neft bazarı üçün nikbinlik vəd etmir. Təbii ki, neftin qiyməti yalnız iqtisadi deyil, eyni zamanda siyasi faktorlardan asılı olduğundan istənilən zaman bazarda sıçrayışlar istisna edilmir. Neft bazarındakı proqnozlaşdırılmayan volatillik bir daha təsdiq edir ki, enerji resursları ilə zəngin ölkələr üçün güclü qeyri-neft sektoru formalaşdırmaq alternativsizdir. Neft bazarındakı sıçrayışlar istənilən zaman neft gəlirlərini kəskin azalda bilər".

**İsmayıl Qocayev**



# Rayonlarımız atəşə tutulur

## Növbəti "Qisas" əməliyyatı işə düşməlidir

**Ermənistan Silahlı Qüvvələri Azərbaycanla dövlət sərhədindəki üç rayonda silahlı təxribat törədiblər. Ermənilər sentyabrın 11-i Gədəbəy rayonunun Novoivanovka və Laçın rayonunun Hüsülü yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərinə atıcı silahlardan atəş açıblar. Bundan başqa, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində olan qeyri-qanuni silahlı dəstələrinin üzvləri isə Kəlbəcər rayonunun Ağqaya yaşayış məntəqəsinin müxtəlif mövqelərini atəşə tutub.**

Ermənilərin səngiməyən provokasiyaları barədə "Şərq"ə danışan tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasovun qənaətincə, təxribatlara "Qisas" əməliyyatının davamı kimi cavab verməк lazımdır: "Erməni tərəfi sanki əks-hücum gözləyirmiş kimi addımlar atır. Azərbaycan "Qisas" əməliyyatını gerçəkləşdirib. Bundan sonra da həyata keçirəcək. Bilə-bilə təxribatlara əl atırlar. Azərbaycan tərəfindən hərbi əməliyyatların davamını istəyirlər və yaxud gözləyirlər. Təxribatlar ya Rusiya tərəfindən gələn sifariş, ya da erməni lobbisinin fəaliyyətlərinin nəticəsidir.

Rus mətbuatında tirajlanan xəbərlərdə Azərbaycan günahlandırılır. Rusiya ictimaiyyəti dezinformasiya yayaraq ölkəmizi əvvəlcədən münaqişədə haqsız çıxarmaq üçün işlər görür.

Guya, erməni tərəfi sakit oturub. Dinc həyat istəməsinə baxmayaraq, Azərbaycan onları qıcıqlandırır. Durumu "Qisas" əməliyyatının bir daha təkrarlanması, ardınca yenidən təxribatlara keçilməsi kimi qiymətləndirirəm".

*Qeyd edək ki, bəzi erməni kütləvi informasiya vasitələrində Azərbaycan Ordusunun bölmələri tərəfindən Xocavənd rayonunun Qırmızı Bazar yaşayış məntəqəsi istiqamətində guya atəşin açılması və nəticədə mülki infrastruktura ziyan dəyməsi barədə məlumat yayılıb. Azərbaycan Müdafiə Nazirliyi ermənilərin iddiasını təkzib edib. Şayiələrin heç bir real əsası olmadığını və həqiqəti əks etdirmədiyini açıqlayıb.*

**Aygün Tahir**

# Toy dəvətnamələrinin sayı xeyli azalacaq

## Bəzi şadlıq sarayları rəqabətə dözməyib bağlanacaq



**Avqust ayında şadlıq saraylarında sifarişlərin sayı 74.0 faiz azalıb. İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) verilən məlumatda sifarişlərin azalması Məhərrəm ayının başlaması ilə əlaqələndirilib: "Yeni mövsüm üçün təklif edilən menyulara əsasən, şadlıq saraylarının qiymətlərində 9 faiz artım qeydə alınıb. Xüsusən 40 manatadək olan menyularda qiymət daha çox artıb: 11 faiz. Sentyabrın sonuna doğru daha yüksək qiymət artımları gözlənilir".**

*İqtisadçı-ekspert Rauf Qarayev isə "Şərq"ə açıqlamasında deyib ki, sifarişlərin azalmasını sadəcə Məhərrəmlik ayı ilə əlaqələndirmək düzgün deyil:* "Əvvəlki illərlə müqayisədə Azərbaycanda şadlıq saraylarında toy etmək istəyən insanların da sayı azalıb. Bunun başlıca səbəbi isə məhz restoran qiymətlərindəki bahalaşmadır. Artıq insanlar öz toylarını həyət evlərində etməyə üstünlük verir.

Bu zaman xərclərinin daha az çıxacağını güman edirlər. Çünki şadlıq saraylarında sadəcə menyunun qiyməti deyil, bu və ya digər xidmətlərin də qiyməti bahalaşıb".

**Şadlıq saraylarındakı bahalaşmanın dünya bazarlarındakı bahalaşma ilə adekvat olduğunu deyən ekspertə görə, bütün ölkələrdə artım və inflyasiya prosesi gedir:** "Biz də bu dünyanın bir parçası olduğumuz üçün şadlıq saraylarındakı bahalaşma da başadüşüləndir. Hər birimiz ərzaq inflyasiyasının nə qədər yüksək olduğunu görə bilirik. Bu bahalaşma toy biznesinin sıradan çıxmasına səbəb olmasa da, çox güman bəzi şadlıq sarayları rəqabətə dözə bilmədiyi üçün bağlanmaq məcburiyyətində qalacaq".

İqtisadçı həmçinin güman edir ki, bahalaşma bu sürətlə davam etsə, insanlar toy dəvətnamələrinin sayını azaldacaq və məclislər nisbətən kiçik ölçülü zallarda keçiriləcək. Bir növ Azərbaycan toyları da avropalaşacaq və xoş günlərimizdə sadəcə yaxın qohumlar, ailə dostları iştirak edəcək.

*R.Qarayevin fikrincə, mövcud bahalaşma dalğası fonunda rəqabətə davam gətirmək üçün şadlıq saraylarının rəhbərləri eyni zamanda kənd təsərrüfatı üzrə sahibkarlıq fəaliyyəti ilə də məşğul olsalar daha yaxşı olar:* "Yəni özlərinin əkib becərdiyi məhsulları özlərinə məxsus şadlıq saraylarında istifadə etsələr, məhsulların bahalaşması səbəbindən menyuda ciddi qiymət dəyişimi etməzlər və bu da toy sahiblərinin məhz onları seçməsinə zəmin yaradar. Hazırda təsərrüfat sahibi olan insanların da bunu nəzərə alıb şadlıq sarayı tikib istifadəyə verməleri gələcəkdə uğur qazanmalarına gətirib çıxarar".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi



# Həm iş yerləri, həm də vətəndaş həmrəyliyi artır

## Yüz minlərlə könüllü cəmiyyətin rifahının yaxşılaşdırılmasına töhfə verir

**Azərbaycan dövləti vətəndaşlarının ictimai həyatın bütün sahələrinə bərabərhüquqlu çıxışını və iştirakını təmin edir. Bunu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü dövlət siyasəti, imzaladığı sərəncamlar, vətəndaşların rifahına xidmət edəcək yeni xidmət mərkəzlərinin yaradılması sübut edir.**

Nəinki ölkəmizdə, qonşu dövlətlərdə də maraqla qarşılanan, təcrübəsinə istinad edilən, əhali tərəfindən də rəğbətlə qarşılanan və bu gün də populayarlığını qoruyub saxlayan "Asan Xidmət" mərkəzlərinin bir növ davamı olaraq "Dost" Agentliyi DOST mərkəzlərinin yaradılması da bu qəbildəndir. Dost Mərkəzlərində "Könüllü DOST" proqramının icrası isə həssas əhali qruplarının cəmiyyətə inteqrasiyasında əhəmiyyətli yer tutur. Ölkəmizdə dövlət tərəfindən həyata keçirilən gənclər siyasətinin əsas istiqamətlərindən biri gənclərin könüllülük fəaliyyətinə cəlb edilməsi ilə bağlı oldu. Prezident İlham Əliyev və Birinci Vitse-Prezident Mehriban Əliyevanın təşəbbüsü ilə 2020-ci ilin "Könüllü ili" elan edilməsi və həmin il Azərbaycanda ilk dəfə Könüllülük həftəsinin keçirilməsi bu prosesin daha geniş vüsət almasına imkan yaratdı. Ölkəmizdə könüllülük fəaliyyəti kifayət qədər geniş və çoxşaxəlidir. Yüz minlərlə könüllü müxtəlif təşkilatlarda çalışaraq cəmiyyətin rifahının yaxşılaşdırılması işinə töhfə verirlər. Ayrı-ayrı dövrlərdə ölkəmizdə keçirilən beynəlxalq yarışlarda könüllülərin təşəbbüskarlığı yüksək dəyərləndirilib. 44 günlük Vətən müharibəsi ərzində də könüllü gənclər fəallıqları ilə yadda qalıblar. Könüllülük hərəkatının genişlənməsində mühüm rola malik "Könüllü DOST" proqramına bu il 19 mindən çox müraciət olub. Ümumilikdə DOST Agentliyi və ilk DOST mərkəzinin açıldığı 2019-cu ilin may ayından bəri "Könüllü DOST" proqramına müraciət sayı 68 minə yaxın olub, proqramda iştirak edənlərin sayı isə 2400-ü ötüb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin "Könüllü DOST" proqramı "Gənc DOST", "Gümüşü DOST", "Korporativ DOST", "İnklüziv DOST" və "Distant DOST" altproqramlarını əhatə edir. 2021-ci il oktyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışı olub. Burada həssas təbəqədən olan şəxslər üçün audio-səsyazma və media, floristika, bağçılıq və landşaft dizaynı, bədii oyma, xalçaçılıq, toxuma və tikmə, dərzilik, dizayner-modelyer sənəti, fotoqrafiya, musiqi, dulusçuluq, təsviri incəsənət, rəqs, kulinariya və səhnə ifaçılığı, aktyor sənəti, idman (kapoeyra, badminton) və publisistika istiqamətləri üzrə təlimlər təşkil olunub.

Hazırda isə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində 30-a yaxın yeni "İnklüziv könüllü" fəaliyyətə başlayıb. Onlar burada 14 istiqamət üzrə müvafiq yaradıcılıq və reabilitasiya prosesinə cəlb olunan həssas təbəqəyə aid şəxslərə dəstək göstərəcəklər. Könüllülük hərəkatına sağlamlıq imkanları məhdud şəxslərin də qoşulması uğurlu sosiallaşmanın təminatına şərait yaradıb. Bununla da inklüzivliyin və sosial bərabərliyin qorunması, cəmiyyətdəki həssas təbəqəyə aid şəxslərlə digər üzvlərin ictimai həyatda bərabərhüquqlu iştirakı təmin olunub. Proqrama cəlb olunan könüllülər 3 aylıq razılaşma əsasında fəaliyyət göstərirlər. Mərkəzdə könüllülük 2 növbə şəklində həyata keçirilir. Hər növbədə 30 nəfər olmaqla, layihə ümumilikdə 60 könüllünü əhatə edir. Qəbul prosesi üç mərhələdə aparılır: I mərhələ - onlayn qeydiyyat mərhələsi. II mərhələ - müsahibə mərhələsi. III mərhələ - təlim mərhələsi. İlkin mərhələdə 100-ə yaxın namizəd müsahibəyə dəvət olunub. Müsahibə mərhələsində namizədlərin sosial aktivlikləri və dünyagörüşləri yoxlanılıb. Bu mərhələni uğurla keçən namizədlərə könüllülük fəaliyyətləri ilə bağlı təlimlər təşkil edilib və nəticədə 30-a yaxın könüllü proqrama qəbul olunub. Həmin şəxslər Mərkəzdəki könüllülük fəaliyyətinə başlayıblar. Qeyd etmək lazımdır ki, İnklüziv könüllü proqramı Azərbaycanda ilk dəfə DOST İnklüziv İnkişav və Yaradıcılıq Mərkəzində tətbiq olunur. Könüllülərin seçimi zamanı sosial iş, psixologiya, məktəbəqədər təhsil, sosiologiya ixtisaslarında təhsil alan gənclərə üstünlük verilir. Onlar Mərkəzin multidissiplinar qrupunun təlimlərində iştirak edərək bu sahədəki bilik və təcrübələrini genişləndirirlər. Təlimlərdə onlara həssas əhali qrupuna aid olan şəxslərlə iş prosesində yarana biləcək mürəkkəb vəziyyətlərdə adekvat yanaşma, davranış qaydaları öyrədilir. Könüllülər şəhid ailələrinin üzvləri, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların övladları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar, aztəminatlı ailələr və əlilliyi olan, daun sindromu, autizm spektr pozuntusu müşahidə edilən şəxslərə təlim prosesində köməklik göstərməklə yanaşı, Mərkəzin ictimai həyatında da fəaldırlar. Onlar burada gələcək karyeralarında faydalana biləcəkləri geniş təcrübə imkanları qazanır, eyni zamanda göstərdikləri fəaliyyətin nəticəsinə uyğun olaraq sertifikat və diplomlarla təltif edilirlər.

**Vətəndaş Cəmiyyətinə Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, könüllü qruplarla tez-tez rastlaşır:**

- Bütün hallarda bu, müsbət haldır. "Könüllü dost", "İnklüziv könüllü" proqramları gənclərin həm peşələrə yiyələnmə, həm də həyat təcrübəsi keçmələri üçün böyük imkandır. Bu, onların gələcək həyatlarında bəlli bir mövqe tutmalarına, çalışacaqları iş yerində, sahib olduqları peşədə üstünlük əldə etmələrinə kömək edir. Peşə təcrübəsi qazanırlar, həyat təcrübəsi əldə edirlər, insanlarla, həm də həssas qruplardan olan insanlarla davranış qaydalarını öyrənirlər, bir sözlə, cəmiyyət həyatına bələd olurlar. İctimaiyyət bundan ancaq müsbət qazanc əldə edir. Cəmiyyətdə bir-birini anlayan, bir-birinə rəğbət bəsləyən insanların olması, həm də vətəndaş həmrəyliyini artırır. Dövlətin bu məsələdə qazancı, əldə etdiyi üstünlük isə odur ki, icra edilən proqram sayəsində peşəkar kadrlar - çətin, hətta fövqəladə vəziyyətlərdə insanlarla işləyə biləcək, onlara dayaq dura biləcək, yardım edəcək peşəkar işçi ordusu formalaşır. Sadəcə, icra edilən proqramın nəticələri də bəlli olmalıdır. Bunu həyata keçirən qurum ictimaiyyətə hesabat verməlidir ki, proqrama qatılmış könüllülər nə dərəcədə işlə təmin edilib. Proqram bitdikdən sonra hansı sahələrdə çalışıblar, hansı sahələrdə onlara tələbat var və bu tələbat necə ödənilib. Könüllülərin işlə təmini dövlət siyasətinin mühüm hissəsi olan işsizliklə mübarizəyə böyük dəstək olar. Cəmiyyətdə ehtiyac duyulan ixtisaslara yiyələnən, bilik və təcrübə qazanmış könüllülər işsiz qalmamalıdır. Onların hansı işlə təmin edildiyi, nə qədər əmək haqqı aldığı da açıqlanmalıdır. Bu, cəmiyyətdə könüllülük proqramında iştiraka həvəsi artıracaq, nəticədə həm cəmiyyət, həm də dövlət insanlarla işləyə bilən kadrlar əldə edəcək.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Varislərlə müsahibələr"ə xüsusi diqqət məni hədsiz sevindirdi"

## Hafiz Əhmədov: "Mən bu müsahibələri Tovuzda ucqar dağ kəndində yaşayaraq hazırlamışam"







*"Yeganə və ən dəyərli qazancım bu şəxsiyyətlərin ruhu qarşısında öz insanlıq borcumu yerinə yetirməyim olub"*

**Araşdırmaçı-jurnalist, "HafizTimes.com" saytının təsisçisi Hafiz Əhmədovun yeni kitabı çapdan çıxıb. Müəllifin "Varislərlə müsahibələr" kitabının birinci hissəsi "Çapar" yayımlar evində işıq üzü görüb.**

Kitab Azərbaycanın tanınmış ictimai-siyasi xadimlərinin, görkəmli şəxslərin, Cümhuriyyət qurucularının varisləriylə müsahibələrdən ibarətdir. Kitabda varislərlə eksklüziv müsahibələr fotolarla birlikdə yer alıb. Sentyabrın 11-də kitabın təqdimat mərasimi keçirilib.

**Kitabla bağlı "Şərq"ə danışan jurnalist Hafiz Əhmədov bildirib ki, aylar öncə "Çapar" yayınlarının rəhbəri Yusif İlhamoğlu ona zəng edərək varislərlə müsahibələri kitab formasında yayımlamaq istədiklərini deyib. Araşdırmaçı ürəyincə olan təklifi məmnuniyyətlə qəbul edib:** "Azərbaycan tarixində önəmli yer tutan ən görkəmli şəxsiyyətlərin dünyanın müxtəlif ölkələrində yaşayan ailə üzvləri, varisləri ilə olan 50-dən çox eksklüziv, tarixi müsahibələrimi, fotolarla birlikdə "Çapar" yayımlarına təqdim etdim. Nəhayət, ötən gün "Varislərlə müsahibələr" kitabının birinci hissəsinin təqdimatı oldu. Bu kitabda 14 tarixi müsahibə, fotolarla birlikdə yayımlanıb. Düşünürəm ki, bu təkcə mənim üçün yox, bütün Azərbaycan, kitab sevənlər üçün çox önəmli hadisədir. Çünki kitabdakı müsahibələrdəki şəxslər, onların fikirləri, təqdim etdikləri fotolar indiyə qədər heç bir kitabda yayımlanmayıb. Hər bir müsahibədə illərlə gizli qalmış, heç kimin bilmədiyi məqamlardan bəhs olunub. Azərbaycanın ən görkəmli şəxsiyyətlərinin Amerika, Yaponiya, Avropa ölkələrində, Kanadada, Türkiyədə yaşayan varislərinin ilk dəfə etdikləri etirafları kitabdan oxumaq mümkündür. Kitabın təqdimat mərasimində iştirak edən çox dəyərli qonaqların, kitabsevərlərin "Varislərlə müsahibələr"ə xüsusi diqqət göstərmələri məni hədsiz dərəcədə sevindirdi, qürur duydum. Çünki müsahibələrdə Fətəli xan Xoyski, Əhməd bəy Ağaoğlu, Mirzə Fətəli Axundzadə, Behbud xan Cavanşir, Nəsib bəy Yusifbəyli kimi və başqa böyük şəxsiyyətlərin qanını damarlarında daşıyan varisləri öz fikirlərini bölüşüblər. Kitabda Məhəmməd Əmin Rəsulzadə ilə bağlı da maraqlı müsahibə çap olunub".

**Hafiz Əhmədov qeyd edib ki, o, tarixçi deyil, jurnalistdir:** "Həsən bəy Zərdabinin 180 illik yubileyinə həsr olunmuş "Əkinçi"dən "Çapar"a adlı tədbirdə tarixçi Ədalət Tahirzadə və digər hörmətli şəxslərin adımı çəkmələri, "Varislərlə müsahibələr" kitabının əhəmiyyətini xüsusilə qeyd etmələri mənim üçün qürurverici idi. İstirahət günü öz dəyərli zamanlarından ayırıb təqdimat mərasiminə gələn, ümumilikdə "Varislərlə müsahibələr" kitabına xüsusi diqqət göstərən insanlara öz adımdan, həmin görkəmli şəxsiyyətlərin varisləri adından təşəkkür edirəm. Mən bu müsahibələri Tovuzda ucqar dağ kəndində yaşayaraq hazırlamışam. Yeganə və ən dəyərli qazancım bu şəxsiyyətlərin ruhu qarşısında öz insanlıq borcumu yerinə yetirməyim olub. Düşünürəm ki, Azərbaycan qarşısında ikinci ən böyük missiyam da uğurla tamamlandı. Birinci missiyam Vətən müharibəsində könüllü iştirak etməyim idi. "Çapar" yayımlarının rəhbərliyinin bildirdiyinə görə, kitab hissə-hissə yayımlanacaq. Yaradıcılığımı hər zaman diqqətdə saxlayan "Şərq" qəzetinə də xüsusi təşəkkür edirəm".

**İsmayıl Qocayev**

# Onlayn lotoreya dələduzları həbs edilib

## "Saxlanılan şəxslər insanlarda inam yaratmaq məqsədi ilə hər gün qruplarda guya müxtəlif şəxslərə ödənişlər etdiklərini bildiriblər və bunun üçün saxta ödəniş qəbzləri hazırlayaraq paylaşıblar"







**"Whatsapp" qrupları yaradaraq onlayn lotoreya keçirmək adı altında minlərlə insanı aldadan dələduzlar həbs ediliblər.**

**Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev məlumat verib.**

Qeyd edək ki, son aylar "Whatsapp" ani mesajlaşma mübadilə sistemində onlayn lotoreyaların təşkil olunduğu, qoyulan pulun 5 qatının əldə ediləcəyi barədə şirnikləndirici vədlər verilərək orada iştirak edən şəxslərin aldadıldığı barədə Daxili İşlər Nazirliyinə çoxsaylı müraciətlər daxil olub.

Bu işlə bağlı zərərçəkən şəxslərin, eləcə də onlayn lotoreya keçirmək adı altında insanları aldadan şəxslərin əhatə dairəsi müəyyənləşdirilib.

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-texniki tədbirlər nəticəsində "Whatsapp" qrupları yaradaraq, guya, onlayn lotoreya təşkil etməkdə təqsirli bilinən Aida Əliyeva və tanışı Pavlov Qennadi saxlanılaraq Baş İdarəyə gətirilib.

Araşdırmalar zamanı müəyyən edilib ki, bu şəxslərin kişi və qadın istifadəçiləri üçün ayrı-ayrılıqda lotoreya təşkil etdikləri 2 "Whatsapp" qrupu olub. Kişilərin qrupunda adminlik Pavlov Qennadi, qadınların qrupunda isə Aida Əliyeva tərəfindən həyata keçirilib.

Hər iki qrupun isə birlikdə 1000-dən artıq üzvü olub. Saxlanılan şəxslər insanlarda inam yaratmaq məqsədi ilə hər gün qruplarda guya müxtəlif şəxslərə ödənişlər etdiklərini bildiriblər və bunun üçün saxta ödəniş qəbzləri hazırlayaraq paylaşıblar.

Həmçinin Aida Əliyeva qrup üzvlərinə səsli mesajlar göndərərək bu işdə ona guya cəmiyyətdə xüsusi nüfuzu olan şəxslərin dəstək olduğunu və ödənilən pulların 5 qat qazanc formasında onlara geri qaytarılacağına vəd edib.

*Faktlarla bağlı Cinayət Məcəlləsinin dələduzluq maddəsinin bir neçə bəndi ilə cinayət işi başlanılıb. Aida Əliyeva və Pavlov Qennadi təqsirləndirilən şəxs qismində cəlb edilməklə barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.*

*Bu şəxslərin qanunsuz əməllərindən zərər çəkən digər vətəndaşlar varsa Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə müraciət edə bilərlər.*

*DİN bir daha vətəndaşları onlayn platformalarda yayılan və heç bir iqtisadi əsası olmayan piramida dələduzluq sxemləri təşkil edən şəxslərə, həmçinin lotoreya adı altında şişirdilmiş qazanclar vəd edən "işbazlara" inanmamağa çağırır.*

**Aygün Tahir**

# Bu da oldu...

## Ana körpəsini zəhərləyərək öldürdü

**Bakıda ana azyaşlı oğlunu zəhərləyərək qətlə yetirib. Suraxanı rayon Prokurorluğundan "Şərq"ə verilən xəbərə görə, sentyabrın 9-da Suraxanı rayonu Hövsan qəsəbəsində 2021-ci il təvəllüdlü uşağın ölməsi barədə Suraxanı Rayon Prokurorluğuna məlumat daxil olub.**

**Aparılmış araşdırmalarla zərərçəkmişin anası, 2002-ci il təvəllüdlü Nərgiz Bağıyevanın uşağının yeməyinə hidrogen peroksid qataraq zəhərləməklə qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.**

Faktla bağlı Suraxanı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Nərgiz Bağıyeva şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

İş üzrə istintaq davam edir.

Hadisə ictimaiyyət tərəfindən canilik kimi qiymətləndirilib. Ananın öz övladını hansısa ambisiya və eqosuna, yaxud sərbəst yaşamaq həvəsinə qurban verməsi ictimaiyyət üzvlərini hiddətləndirib.

Valideyn məsuliyyətinin çox önəmli olduğunu vurğulayan ekspertlərə görə, bunun hüquqi tərəfi ilə yanaşı, mənəvi tərəfi də var.

**Psixoloq Nərgiz Hüseynovanın sözlərinə görə, uşaq onu qoruduğunu sandığı, sevdiyi, güvəndiyi bir varlıq tərəfindən öldürülür. Eyni zamanda qorumağa möhtac olan, təhlükəyə qarşı cavab vermək bacarığı olmayan bir varlığın - körpə uşağın həyatdan məhrum edilməsi canilikdir:** "Belə hadisələrin qarşısını almaq üçün qanunvericilikdə valideyn məsuliyyətini artırmaqla yanaşı, insanlar arasında yaş, cins ayırımı etmədən maarifləndirilmə aparılmalıdır. Əminəm ki, belə cinayəti, yaxud körpələrə qarşı zorakılığı törədən şəxslər valideyn olmaq üçün hazır deyillər. Cəmiyyətdə belə düşüncə var ki, hamı ailə qurmalı və uşaq dünyaya gətirməlidir. Buna texniki bir proses kimi yanaşırlar. Amma ailə qurmaq istəyən insanların nə psixoloji, nə də maddi durumu ölçülür. Digər əsas məqamlar da nəzərdən qaçır".



### "Səbəbi nə olursa olsun, bu cür vəhşiliyə heç cür haqq qazandırmaq olmaz"

**Sosioloq Lalə Mehralı da "Şərq"ə açıqlamasında deyib ki, valideynlərin öz balasını öldürməsi qədər onu sarsıdan xəbər olmur.**

Sosioloq həmçinin hadisənin qəsdən törədilməsinin onda şübhə doğurmadığını deyib: "Hidrogen peroksid kimi təhlükəli bir məhlulu uşağın qidasına başqa hansı məqsədlə əlavə etmək olar ki!? Düzü, bu ananın 20 yaşlı olması bunu təcrübəsizlik və ya bilməyərəkdən etməsinə əsas vermir. Hamı bilir, üzərində də yazılır ki, hidrogen peroksid nə məqsədlə istifadə edilir. Bu, qida əlavəsi, vitamin tərkibli sirob və ya hansısa dadlandırıcı təam deyil ki, ana təcrübəsizlik etsin!? Zəhərin uşağın yeməyinə qəsdən öldürmək məqsədi ilə qatılması bəllidir. Ancaq ananın psixoloji durumu da burada əsas faktordur. Yəqin ki, istintaq gedişində qadın müayinədən keçiriləcək və onun psixi cəhətdən nə dərəcə sağlam olub-olmadığı bəlli olacaq. Bəlkə də psixoloji durumu normaldır. Sadəcə, ailə üzvlərindən kiməsə hirslənib və hirsini və hikkəsini soyutmaq məqsədi ilə affekt vəziyyətdə bu addımı atıb".

Sosioloq hesab edir ki, ailə bəlkə də boşanma ərəfəsində olub deyə ana uşağı özünə ayaq bağı kimi görüb və ondan qurtulmaq istəyib. Bütün hallarda hadisə araşdırılmalı və ana məsuliyyətə cəlb olunmalıdır: "Pereksdən uşağın boğazını yumaq, göbəyini qurutmaq, yaralarını silmək üçün hamı istifadə edir. Bu hallardan birini edərkən pereksin dozasını çox edib uşağa hansısa ziyan vermiş olsa haradasa təcrübəsizlik demək olardı.

Ümumilikdə isə səbəbi hər nə olursa olsun, bu cür vəhşiliyə heç cür haqq qazandırmaq olmaz. Nə psixoloji problemi olmaq, nə zərərli vərdişinin olması, nə də əsəb və ya başqa bir səbəb. Mənəviyyat insani duyğudur, əgər bir insanda o duyğu yox olubsa, o insanın hər hansı bir canlıdan fərqi qalmır".

**Şəymən**

# Niyə Azərbaycan qadını aqressivləşib?

## Pərvin Nurəliyeva: "Mütəxəssislər hadisənin səbəblərini aşkarlamalıdır"



**"Son vaxtlar qadınların uşaqlara qarşı davranışı, aqressiyası bütün sosioloq, psixoloq, ailə institutu ilə məşğul olanları problem haqda düşünməyə vadar edir. Niyə Azərbaycan qadını aqressivləşib?".**

Bu sözləri "Şərq"ə açıqlamasında övladını zəhərləyərək öldürməkdə şübhəli bilinən ana barədə danışarkən yazıçı Pərvin Nurəliyeva deyib.

O, qadınları cəmiyyətin siması adlandırıb: "Bir neçə gün öncə loqoped mərkəzində danışa bilməyən uşaqlara zorakılıq törədən qadınların videosu yayıldı. Onların aqressiv olması hər kəsi düşündürməlidir.

Normal psixoloji durumda olan valideyn öz övladına xəsarət yetirə bilməz. Təbii ki, onun psixologiyası yerində deyil. Məsələnin kökünü araşdırmaq lazımdır. Niyə Azərbaycan qadını çətin psixoloji durumdadır? Mütəxəssislər hadisənin səbəblərini aşkarlamalıdır.

Baş verən hadisə cəmiyyətin digər üzvünün nəticə çıxarması üçün vacib elementdir. Ailə institutu məsələsinə bir daha baxılmalıdır. Qadınların asudə vaxtını dəyərləndirməsi, xoşbəxt olması üçün ailə institutları, təşkilatlar səviyyəsində hər kəs maraqlanmalıdır". Qeyd edək ki, Suraxanı rayonu, Hövsan qəsəbəsində ana 1 yaşlı övladını zəhərləyərək qətlə yetirməkdə şübhəli bilinərək saxlanılıb. Hadisəylə bağlı Suraxanı Rayon Prokurorluğundan məlumat verilib. Aparılmış araşdırmalarla zərərçəkmişin anası, 2002-ci il təvəllüdlü Nərgiz Bağıyevanın uşağının yeməyinə hidrogen peroksid qataraq zəhərləməklə qəsdən öldürməsinə əsaslı şübhələr aşkarlanıb.

### *"Normal psixoloji durumda olan valideyn öz övladına xəsarət yetirə bilməz"*

Hadisə ilə bağlı BAKU TV-yə danışan körpənin nənəsi Leyla Bağıyevanın sözlərinə əsasən, körpənin ölmədiyini görən ana övladını boğaraq öldürüb. Uşağın nənəsi qızının psixoloji problemləri olduğunu vurğulayıb. Buna görə də azyaşlıya nənə özü baxırmış.

**Aygün Tahir**

# Miri Yusif uşaqlarının məktəbə getməsindən yazdı



**Xalq artisti Miri Yusif ailəsi ilə yeni fotosunu yayımlayıb.**

Müğənni övladlarının yeni tədris ilinə başladığını vurğulayıb. Şəkildə sənətçinin xanımı Nərgiz, iki oğlu və qızı yer alıb.

Uşaqları Türkiyədə İzmirdə dərsə gedən Miri Yusif fotoya "Ancaq valideynlər sevinir. Hamınızı təbrik edirik. Yolları açıq olsun" sözlərini yazıb.

*Qeyd edək ki, ifaçının iki oğul, bir qız övladı var. Miri Yusif artıq bir neçə ildir ki, ailəsi ilə birlikdə Türkiyədə yaşayır.*

# Fatimə qızı ilə 24 illik arxivini üzə çıxardı



**"Göyçək" ləqəbi ilə şou-biznesdə məşhurlaşan rəqqasə Fatimə Fətəliyeva 24 illik arxivini üzə çıxarıb. Bizim media xəbər verir ki, qızı Aydan ilə 1998-ci ildə çəkilən fotosunu paylaşan rəqqasə kövrət postu ilə diqqət çəkib.**

"Bu fotoda Aydanımın dörd yaşı tamam olmuşdu. İndi isə o özü anadır. Allah hamının balasını saxlasın", - deyə Fatimə paylaşımına şərh yazıb.

*Qeyd edək ki, F.Fətəliyevanın qızı Aydan 3 il əvvəl Əkbər adlı şəxslə ailə qurub. 2 il əvvəl isə cütlüyün oğlu dünyaya gəlib. Fatimənin qızı Aydandan başqa Hüseyn adlı oğlu var. Fatimə Fətəliyeva Xəyal adlı bəylə 16 ildir evlidir.*

# "Bu gününə şükür edəcəksən"

## Flora Kərimova Afəti yenə hədələdi



**"İndiyə kimi başa düşmədin ki, niyə iki il sükutdan sonra məhkəməyə verildin? Sən yox, amma sənin vəkilin olmuş Ramil Rustəmov sənə bunun səbəbini izah etməli idi. Afət, bundan sonra ən azı iki il sonra səni nə gözlədiyini, nə edəcəyini, kitabın harada bağlanacağını bilirəm. Sən isə iki il öncə dediyin sözləri unudacaq qədər bəsitsən. Gələn il bu vaxt bu gününə şükür edəcəksən".**

*Bu sözləri Xalq artisti Flora Kərimova sosial şəbəkədə yazıb. Müğənni qalmaqal yaşadığı ifaçı Afət Fərmanqızı ilə bağlı paylaşım edib. Kərimova bildirib ki, məhkəmə prosesi hələ də davam edir:*

"Bilmədən yazıq o zaman oldun ki, fürsət bilib adımdan özünə ad düşündün. Məni sənə heç yaxşı tanıtmayıblar. Bir "yalvarışını" cavabsız qoymayacam. Dedin, qorxmursa, versin məhkəməyə, cinayət işin icradadır. Polis axtarışındasan! Dedin, başqa rayon məhkəməsinə gələrəm, Binəqədininki quramadır, mülki işin Nərimanov Rayon Məhkəməsində ekspertizadadır".

**F.Kərimova Afəti yenidən məhkəməyə verdiyini açıqlayıb:** "Övladıma və mənə atdığın son yalan-böhtanlarına görə ikinci cinayət işin də mübarək olsun! Sürgün həyatının qışı qabaqdadır. Anketində boş yer qalmayan yaşadığın həyatı sənə elə orda başa salacam.

290-cı mənzilin qapısını bərk bağla, qonaqların tezliklə döyəcək, mənim gəlməyimə ehtiyac qalmayacaq. Təəssüf ki, nə sən daim açıq qalan qapının arasında qalan quyruqlarını, nə də Nanacanov (Afət Mamed Nanacanov adlı şəxslə ailə qurduğunu açıqlayıb - red.) buradan Ufaya qədər arxasınca sürünən "buynuzları" görmür! Bu yazını da arvad müsahibəsinə müdaxilə edən "oliqarx ərinə" oxudarsan. Nə demək istədiyimi başa düşərsə, səni özü tez bir zamanda "Qazel"lə Bakıya yola salacaq!

Sənin Azərbaycana gəlməyin bu gedişlə uşaq Nanacanova ata deyəndə olacaq. Binəqədi Rayon Polis İdarəsinin Əməliyyat-axtarış şöbəsinin polkovniki sənin - cinayətkarın yaxalanması üçün axtarışını davam edir. Sənədi də sənin ücün yerləşdirdim ki, arxayın yat".

**Aygün**

# "Dünən halı lap pisləşdi"

## Xalq artisti xəstəxanaya getməkdən imtina edib



**Xəbər verdiyimiz kimi, Xalq artisti Ənvər Həsənov uzun sürən müalicədən sonra xəstəxanadan evə buraxılıb.**

Aktyorun qızı Aytən Həsənova Axşam.az-a açıqlamasında atasının səhhətinin yenidən pisləşdiyini deyib. O bildirib ki, Ə.Həsənov xəstəxanaya getməkdən imtina edib:

"Dünən halı lap pisləşdi. İndi də halsızdır. Axır da güclə bir MRT (Maqnit rezonans tomoqrafiya) tapmışam və növbəyə yazılmışam. Atam xəstəxanaya getməkdən imtina edir, deyir, nə olursa evimdə olsun. Həkim gəlib yoxlayır, nəzarətdə saxlayırlar".

A.Həsənova atasının koronavirus testinin nəticəsindən də danışıb: "Beş gündən sonra testin cavabı neqativ çıxdı. Çox gülməli hal idi. Atam o virusu hardan tutdu və necə sağaldı anlamadıq. Atamın səhhətindəki problem beynindəki travmadır. O, onu çox zəif saldı".

*Xatırladaq ki, bir müddət əvvəl səhhətində problemlər yaranan Ə.Həsənov xəstəxanaya yerləşdirilmişdi. O, öz istəyilə Xəzər Tibb Mərkəzində müalicəyə cəlb olunub. Aktyordan daha əvvəl koronavirusla əlaqədar götürülən test analizinin nəticəsi pozitiv çıxıb.*

# "Nar"ın dəstəyilə 10 abituriyent tələbə adını qazandı



**"Nar"ın "Gələcəyini Qur!" layihəsi ilə əməkdaşlıq çərçivəsində universitetə hazırlıq xərclərini öz üzərinə götürdüyü şagirdlərin hamısı tələbə adını qazanıb. Qarabağ müharibəsi veteranları və hərbçi ailələrindən olan məktəblilərin 100 %-lik nəticəsi münasibəti ilə "Nar" bu gəncləri təbrik edir və növbəti təhsil pilləsində də onlara müvəffəqiyyət arzu edir.**

Qeyd edək ki, "Gələcəyini Qur!" layihəsi təhsilini davam etdirmək istəyən 11-ci sinif şagirdlərini müəyyən edərək onlar üçün bir il ərzində universitetə hazırlıq, psixoloji dəstək və şəxsi inkişafa yönəlmiş müxtəlif təlim, səfər və tədbirlər təşkil edir. Elm və Təhsil Nazirliyinin dəstəyi və bir sıra şirkətlərin maliyyə dəstəyi ilə fəaliyyət göstərən "Gələcəyini Qur!" layihəsinin əsas məqsədi aztəminatlı ailələrdən olan potensiallı gənclərin ali təhsilə yiyələnmələrinə dəstək olmaqdır.

"Nar" elm və təhsilə dəstək istiqamətində davamlı layihələr həyata keçirir. Mobil operatorun korporativ sosial məsuliyyət istiqamətində gördüyü layihələrlə nar.az/projects vasitəsilə tanış ola bilərsiniz.

**Elan**

"Z GROUP DİZAYN" (VÖEN 1004311431) MMC-nin möhürü, maliyyə və hüquqi sənədləri itdiyi üçün etibarsız sayılır.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2627**



## Arda Turan karyerasını bitirib

**Türkiyəli futbolçu Arda Turan karyerasını bitirdiyini elan edib.**

Futbolçu bu barədə "YouTube"da yayımladığı videoda bildirib. 35 yaşlı futbolçu ötən mövsümü "Qalatasaray"ın tərkibində keçirib.

O, karyerası boyunca 1 dəfə Türkiyə çempionu, "Barselona" və "Atletiko"nun heyətində 2 dəfə İspaniya çempionu adını qazanıb. Arda "Atletiko ilə, həmçinin UEFA Avropa Liqasını qazanıb.

*Türkiyə milli komandasının tərkibində 100 oyun keçirən Arda Turan 16 qola imza atıb.*

## Boğazında qarğıdalı dənəsi qalan 28 yaşlı Şəki sakini ölüb



**Şəkidə 28 yaşlı gənc bədbəxt hadisə nəticəsində ölüb.**

APA-nın Şimal-qərb bürosunun məlumatına görə, ötən gün rayonun Köbər Zəyzid kənd sakini 1994-cü il təvəllüdlü Vüqar Mövlud oğlu Mustafayev boğazında yad cisim qalması və boğulma əlamətləri ilə Şəki rayon Mərkəzi Xəstəxanasına daxil olub.

Müayinə zamanı V. Mustafayevin boğazında qarğıdalı dənəsi qaldığı məlum olub. Xəstəxananın Reanimasiya şöbəsinə yerləşdirilən V. Mustafayevə göstərilən yardımlara baxmayaraq, səhər saatlarına yaxın onda bioloji ölüm faktı qeydə alınıb.

*Faktla bağlı araşdırma aparılır.*







# İnqilabi araşdırma

## Alimlər havanın çirklənməsi ilə xərçəng arasında əlaqəni tapıblar

**Siqaret çəkməyənlərin niyə ağciyər xərçənginə tutulması ilə bağlı İngiltərədə aparılan araşdırma ölümcül xəstəliyin necə yarandığına dair anlayışı dəyişib. Elm adamları xərçəngə səbəb olan DNT zədəsinin əvvəllər düşünüldüyü kimi sonradan meydana gəlmədiyini və hava çirkliliyi kimi əlverişli şərtlər daxilində meydana çıxana qədər gizləndiyini ortaya qoyublar. Tədqiqatçılar kəşfin xərçəng müalicəsində "yeni era"nın başlayacağını və artıq xərçəngin əmələ gəlməsini dayandıran dərmanların hazırlanmasının mümkün ola biləcəyini bildiriblər.**

İngilis elm adamları, şişlərin necə yarandığına dair anlayışı tamamilə dəyişdirən bir kəşflə havanın çirklənməsinin xərçəngə necə səbəb olduğunu həll etdiklərini açıqlayıblar. Londondakı Francis Crick İnstitutunun tədqiqatçıları havanın çirklənməsinin köhnə zədələnmiş hüceyrələri zədələmək əvəzinə onları oyatdığını sübut ediblər.

Dünyanın aparıcı ekspertlərindən biri olan professor Çarlz Svanton araşdırmanın "yeni dövrə" başlayacağını və artıq xərçəngin əmələ gəlməsini dayandıran dərmanların hazırlanmasının mümkün ola biləcəyini söyləyib.

Digər tərəfdən, əvvəllər xərçəngin sağlam hüceyrədə başladığı, DNT-dəki mutasiyaları qırılma nöqtəsinə çatana qədər artırdığı, sonra isə xərçəngə çevrildikdən sonra nəzarətsiz şəkildə çoxaldığı düşünülürdü. Ancaq illər keçdikcə elm adamları bu fikrin doğru olmadığını müəyyən etdilər.

Yeni araşdırmanın müəllifləri aşkar ediblər ki, zərər insan hüceyrələrinin DNT-sində artıq mövcuddur və sonradan baş vermir. Tədqiqatçıların sözlərinə görə, DNT-yə bu zərər biz böyüdükcə və

### Artıq xərçəngin əmələ gəlməsini dayandıran dərmanların hazırlanması mümkün olacaq



yaşlandıqca baş verir.

Mütəxəssislər bu kəşfin siqaret çəkməyənlərin niyə ağciyər xərçənginə tutulduğunu araşdırarkən nəticəyə gəldiyini söyləyiblər. Ağciyər xərçənginin böyük əksəriyyəti siqaretdən qaynaqlanır, lakin Böyük Britaniyada hələ də hər 10 hadisədən biri havanın çirklənməsi ilə bağlıdır.

Tədqiqat üçün elm adamları insan saçının diametrindən çox kiçik olan hissəciklərin 2.5 adlı çirklənmə formasına diqqət yetiriblər. Onlarla insan və heyvan üzərindəki təcrübədən sonra tədqiqatçılar müəyyən ediblər ki, havanın çox çirkli olduğu yerlərdə siqaretdən qaynaqlanmayan ağciyər xərçənginə daha çox rast gəlinir.

Tədqiqatın müəllifləri bildirir ki, "PM2.5 çirklənməsinin sıx olduğu bir mühitdə tənəffüs ağciyərlərdə kimyəvi həyəcan siqnalının (interleykin-1-beta) salınmasına səbəb olur. Bu, iltihaba səbəb olur və hər hansı bir zədənin bərpasına kömək etmək üçün ağciyərlərdə hüceyrələri aktivləşdirir. Ancaq 50 yaşlı bir insanın ağciyərlərində təxminən hər 600.000 hüceyrədən birində artıq potensial xərçəng mutasiyaları var. "Bunlar yaşlandıqca əldə edilir, lakin kimyəvi həyəcan siqnalı ilə aktivləşənə və xərçəngə çevrilənə qədər tamamilə sağlam görünürlər".

**Turan**

## Gülşən ev dustaqlığından azad edildi



**Türkiyənin pop ulduzu Gülşənin ev dustaqlığı cəzası ləğv edilib.**

**Müğənninin barəsində Ataşehirdə aprelin 30-da verdiyi konsertdə İmam Hatip Liseyi şagirdlərinə dediyi sözlərə görə ev dustaqlığı qərarı verilmişdi. Onun ölkədən çıxmamaq şərtilə, hər gün ən yaxın polis bölməsinə gedərək imza atması barədə qərar verilib.**

## Maddi gücləri artdı

### Kraliçanın ölümündən sonra Uilyam və Middlton milyarder oldu



**Kraliça II Elizabetin vəfatından sonra nəvəsi şahzadə Uilyam və Keyt Middlton Kornuoll hersoqları titulunu alıblar.**

**Axşam.az xəbər verir ki, bununla yanaşı onlar öz səlahiyyətlərini genişləndiriblər. Onların maddi gücü artıb və artıq milyarder adı alıblar. İndi Kornuol hersoqlarının sahib olduqları Qərb nəşrlərinə görə, 1,1 milyard funt-sterlinq dəyərindədir. Digər şeylər arasında külli miqdarda torpaq sahələri, meşələr, çaylar və digər aktivlər üç uşaq böyüdən Uilyam və Keytin ixtiyarına keçib. Şahzadənin atası Çarlz III Çarlz adını alaraq taxta çıxıb. Həyat yoldaşı Kamilla Parker-Boulz Kraliça Konsorti titulunu alıb.**

***Qeyd edək ki, Kraliça sentyabrın 8-də 96 yaşında vəfat edib. Onun dəfn mərasimi sentyabrın 19-da Vindzor qəsrində keçiriləcək.***

## İş adamı dilxordur

### Hadisənin adını eşidən kimi müxbirlərdən qaçdı



**Xəbər verdiyimiz kimi, bir müddətdir türkiyəli məşhur müğənni Hadisə ilə həyat yoldaşı Mehmet Dinçerler arasında gərginlik olduğu iddi olunur.**

**Axşam.az xəbər verir ki, ötən gecə paparatsilərə tuş gələn Mehmet müxbirlərin mövzu ilə bağlı suallarını cavablamaqdan imtina edib. O, Hadisənin adını eşidən kimi dərhal avtomobilinə əyləşərək oradan uzaqlaşıb. Bununla belə iş adamının barmağında nikah üzyünün olmaması diqqət çəkib.**

***Qeyd edək ki, cütlük ayrılıq və Hadisənin hamilə olması ilə bağlı xəbərləri bir müddət əvvəl təkzib etsələr də ətraflı açıqlama verməyiblər.***



# Ölüm kanalı

## Bu yay çoxu uşaq olmaqla 28 nəfər boğularaq ölüb

**Adanada yay mövsümündə suvarma kanallarına girərək sərinləmək istəyən 28 nəfər boğulub.**



"Şərq" türk mediasına istinadən xəbər verir ki, yayda dəhşətli istilərin yaşandığı Adanada hər yay onlarla insan sərinləmək üçün girdikləri suvarma kanallarında boğularaq həyatını itirir. Şəhərin mərkəzindən keçən kanalların ətrafı məftil çəpərlər və üzərində "Üzmək təhlükəlidir və qadağandır" yazılan xəbərdarlıq lövhələri ilə bağlandığı halda, polis qrupları daima əraziyə nəzarət edərək suya girənlərə xəbərdarlıq edib. Bu yay Adanada çoxu uşaq olmaqla 28 nəfər boğularaq ölüb. Son 10 ildə 288 nəfər suvarma kanallarında həlak olub.

Sentyabrın ortalarına baxmayaraq, havanın temperaturunun yüksək olması səbəbindən şəhərdə uşaq və gənclər təhlükədən asılı olmayaraq suvarma kanallarında çimməyə davam ediblər. Yüreğir rayonunda Ege Bağatur bulvarında suvarma kanalına daxil olan uşaqlar akrobatik hərəkətlər edərək xəbərdarlıqlara məhəl qoymayıblar.

Kanalda üzən İbrahim Sucu (21) "Bizi istədikləri qədər cəzalandırsınlar, kanalda üzməyə davam edəcəyik. Qışda da gəlib üzürük. Burada üzməkdən qorxmuruq" deyib.

Adana Böyükşəhər Bələdiyyəsi polis qrupları kanala gələrək uşaqları sudan çıxarıb. Polis qrupları getdikdən sonra uşaqlar yenə üzməyə davam ediblər.

**Turan**

## Soyuq daha ölümcüldür

### Aşağı hərarət daha çox ürək-damar problemi yaradır



**Soyuq və şaxtalı hava istidən insanlıq üçün istidən 20 dəfə daha təhlükəlidir.**

"Medicina" xəbər verir ki, britaniyalı alimlər insan ölümünə ekstremal isti və ya soyuğun səbəb olmadığını bildirib.

London tibbi məktəbinin ekspertləri havanın insan ölümünə təsiri barədə araşdırma aparıb.

"Anomal isti və anomal soyuqda ölüm riski yüksəkdir, amma reallıqda insanları öldürən kəskin soyuq yox, kəskin temperatur dəyişikliyidir.

Məsələn, 20 dərəcə istidən qəfil 6 dərəcəyə enmə və ya 10 dərəcə temperatur davam edərkən, 3 gün ərzində 1 dərəcəyə enmə ərəfəsində orqanizm daha dözümsüz olur.

Soyuq insan üçün daha ölümcüldür, aşağı hərarət daha çox ürək-damar problemi yaradır.

Alimlər inkişaf etmiş ölkələrin klimatik ölüm səviyyəsi ilə mübarizəsində daha çox ekstremal istilərlə mübarizə apardığını qeydə alıb. Əslində isə diqqət soyuqlara yönəlməlidir". Halbuki Milli Hava Xidməti məhz isti havanın tornado, tufan və selbasma yaratdığı üçün insan həyatına ölümcül təsir etdiyini açıqlamışdı.

## Ürəyə istirahət verək

### Vaxtaşırı bədənin vəziyyətini dəyişmək lazımdır



**Gərgin və stressli bir işiniz varsa, zaman tapıb istirahət etmək, xüsusən də uzanmış vəziyyətdə istirahət etmək lazımdır. İstirahət etmək ürək-damar sisteminin üzərinə düşən gərginliyi aradan qaldıraraq onun işini normallaşdıracaqdır.**

"Medicina" xəbər verir ki, ürək-damar uzmanı Cabir Gülmaliyev ümumiyyətlə ürəyin sağlamlığı, qan dövranının normal fəaliyyəti üçün vaxtaşırı olaraq bədənin vəziyyətini dəyişmək lazım olduğunu deyib.

"Məsələn, iş vaxtı siz uzun müddət oturmalı olursunuzsa, hər dəfə imkan olduqca ayağa qalxaraq otaqda bir qədər gəzmək, oturduqda isə ayaqlarınızın vəziyyətini tez-tez dəyişdirmək, onları bükib-açmaq, hərəkət etdirmək lazımdır.

Ürəyin normal fəaliyyəti üçün gün ərzində normal yuxu minimum 7-8 saat təşkil etməlidir. Uzun və sağlam həyat yaşamağınız üçün ürəyinizin də istirahətə ehtiyacı var!", - deyə, həkim insanları bu mövzuda diqqətli olmağa çağırıb.